**Nə qədər ki Azərbaycan var, mən də varam.
Mən isə Azərbaycanda əbədi olacağam!**



Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 48 (24.483)

13 dekabr 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*

# Ulu Öndərə xalqın sevgisi əbədidir



## Prezident İlham ƏLİYEV:

***"Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri vardır. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır."***

Xalqın məhəbbətini qazanmaq hər kəsə nəsib olmur. Azərbaycanda hakimiyyətə çoxları gəlib-gedib. Onlardan heç birinə xalq tərəfindən Ulu Öndər Heydər Əliyev qədər sevilmək səadəti nəsib olmayıb. Bu ümumxalq məhəbbətinin arxasında böyük siyasət və böyük işlər dayanır. *"Azərbaycanın bəxti onda gətirib ki, tarixinin ən mürəkkəb və həlledici məqamında ona Heydər Əliyev rəhbərlik edib"* – dünyanın məşhur siyasətçilərindən birinin dediyi bu sözlərdə danılmaz həqiqət var. Dahi şəxsiyyət Heydər Əliyev, sözün əsl mənasında, xalqımızın bəxtinə düşən Tanrı payı idi. Həyatının son dəqiqəsinədək xalqının gələcək taleyi haqqında düşünən Ümummilli Liderimiz bizə müstəqil, dünyada öz sözü və yeri olan Azərbaycan qoyub getdi.

Biz heç vaxt Onu Azərbaycansız, Azərbaycanı Onsuz təsəvvür etməmişik. *"Heydər-xalq, xalq-Heydər birliyi əbədidir"* deyimi xalqımızın, Vətənimizin və onun əvəzedilməz liderinin birliyinin, ayrılmazlığının ifadəsidir. Bütün həyatını canından çox istədiyi xalqının yolunda şam kimi əridən Ulu Öndər ***"Mən fəxr edirəm ki, mən azərbaycanlıyam"***, – deyərək xalqımızın mənəvi-əxlaqi keyfiyyətlərini özündə birləşdirən dahi siyasətçi xalqımızı firavan günlərə çıxartdı. Dünyada elə bir dövlət xadimi, tanınmış siyasətçi yoxdur ki, onun siyasi nəhəngliyini, liderlik qüdrətini etiraf etməsin. Dünyanın böyük siyasi liderləri Heydər Əliyevi əsrin lideri sayırdılar. Eduard Şevardnadze deyirdi: *"XX əsr liderlər əsridir. Əsrin lideri Heydər Əliyevdir"*. Keçmiş ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Zbiqnev Bzejinski isə fikrini belə ifadə edib: *"Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət – bir sözlə, şəksiz liderdir"*. Bu fikirlərin sayını istənilən qədər artırmaq olar. Çünki dünyada tanınan elə bir siyasi xadim yoxdur ki, Ümummilli Liderimiz haqqında belə heyrətamiz fikirlər söyləməsin. Nikolay Baybakov yazır ki, *"Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram!"*

Səhifə ⇨ 2



# Ulu Öndərə xalqın sevgisi əbədidir

*(əvvəli 1-ci səhifədə)*

Bu Onun ictimai-siyasi fəaliyyətinə verilən qiymətdir. Amma "Heydər Əliyev sadəliyi", "Heydər Əliyev səmimiyyəti" deyilən məqamlar da var ki, bunlarsız böyük liderin tam portretini tamamlamaq qeyri-mümkündür. Görkəmli dövlət xadimi Heydər Əliyevin xalqla görüşlərini, sadə insanlarla təmaslarını yada salanda bu böyük insanla bircə anlıq ünsiyyətdə olub Onu sevməmək, Onun cazibəsinə düşməmək mümkünsüz işdir. Dahi şəxsiyyət Heydər Əliyev dünənin və bu günün adamı deyil. O daha çox gələcəyin adamıdır. Çünki gördüyü işlər firavan gələcək üçün hesablanmış binanın təməlidir. Bu səbəbdən *"Heydər Əliyev Azərbaycan dövlətinin memarıdır"* ifadəsi çox dəqiqdir. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev qayğısını, Heydər Əliyev nəfəsini hiss etməyəsən. Bənzərsiz və müqayisəedilməz şəxsiyyət olan Heydər Əliyev bir çox liderlər kimi təkcə dövrünün, zəmanəsinin oğlu yox, gələcəyin adamı idi.

Tanrı Heydər Əliyevə tükənməz potensial, qeyri-adi istedad vermişdi. Dahi şəxsiyyət Heydər Əliyev sözə, vəzifəyə, torpağına, Vətəninə ucalıq gətirmişdi. Azərbaycanın sadə ailəsindən çıxaraq böyük bir dövlətin – Sovetlər İttifaqının rəhbərliyinədək ucalan Ulu Öndər Heydər Əliyev istedadı, qabiliyyəti, biliyi olanların arxası, onları irəliyə çəkən, onlara Vətəni sevmək hissi, idarəetmə səriştəsi aşılayan əvəzsiz şəxsiyyət idi.

Ölkənin bütün bölgələrini inkişaf etdirən, binalar tikdirən, körpülər saldıran, heykəllər ucaltdıran Heydər Əliyev sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə azərbaycanlıların qəlbində silinməz izlər buraxan xidmətlər göstərmişdir. Bu da bəllidir ki, Heydər Əliyevədək Azərbaycan durğunluq içərisində yaşayırdı. Unudulmaz rəhbər bütün imkanlarını səfərbər edərək Azərbaycanın müstəqil yaşaya bilməsi üçün lazım olan işləri imperiyanın vəsaiti hesabına gördü. Müstəqil energetika sisteminin yaradılması, neft sektorunun inkişafı, neftçıxarma və emal müəssisələrinin tikintisi, sənaye komplekslərinin yaradılması, ittifaq əhəmiyyətli sənaye müəssisələrinin Azərbaycana salınması, paytaxtda bir-birindən gözəl binaların tikintisi, mədəniyyətimizin dünyada tanınması, səhiyyənin inkişafı, yeni mikrorayonların, qəsəbələrin, salınması... Bütün bunları saymaqla qurtaran deyil. 1969-1982-ci illərdə Heydər Əliyev fəaliyyətinin ideyası Azərbaycanın müstəqilliyi üçün möhkəm bünövrə yaratmaq idi.

1993-cü ildə Ulu Öndər Heydər Əliyev Azərbaycanı xaos içərisində qəbul etdi. Xalqına arxalanan, onun səsinə səs verən dahi şəxsiyyət özünəməxsus müdrikliklə parçalanmaq təhlükəsi ilə üzləşmiş bir ölkədə xaosa və anarxiyaya son qoydu, müasir, müstəqil Azərbaycan dövlətini yaratdı. Ulu Öndərin hakimiyyətdə olduğu hər bir il Azərbaycanı uğurdan-uğura apardı. Çıxışlarının birində Ulu Öndər deyirdi: ***"Xalqım üçün firavanlıq və əmin-amanlıqdan başqa ayrı bir arzum yoxdur. Bütün varlığımı, bütün qüvvə və bacarığımı mən bu amala həsr etmişəm".*** Öz amalını Ümummilli Lider böyük inamla reallaşdırdı, həqiqi demokratiyanın memarı kimi yaddaşlarda qaldı.

Ulu Öndər Heydər Əliyev bütün ömrünü mənsub olduğu xalqa təmənnasız xidmətdə keçirdi. Hələ gənclik illərindən ideallarında yaşatdığı müstəqil Azərbaycan dövlətçiliyinin dönməzliyini və əbədiliyini təmin etdi. Dahi şəxsiyyət qurub-yaratdığı şah əsəri olan müstəqil Azərbaycanın taleyini Prezident İlham Əliyevə əmanət etdi. Xalqımız Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanacağına, Azərbaycanın daha güclü və qüdrətli dövlətə çevriləcəyinə ürəkdən inanır. Dövlət başçısının dediyi kimi: ***"Nə qədər Azərbaycan var, Heydər Əliyev olacaqdır. Biz – Ulu Öndərin davamçıları onun yolu ilə gedəcəyik, Azərbaycanı gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq".***

Bu gün Azərbaycan xalqı 200 illik tarixini Ulu Öndər Heydər Əliyevin siyasi varisi, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti, dönməz iradəsi, liderliyi və sərkərdəliyi sayəsində bərqərar edib. Ali Baş Komandan İlham Əliyevin ***"Qarabağ Azərbaycandır!"*** kəlamı və "Dəmir yumruq" hesabına Azərbaycan Ordusu bütün dünyaya nümayiş etdirdiyi Qarabağ Zəfəri ilə yeni hərb tarixini yazdı. Cəmi 44 gün ərzində qazanılan qalibiyyət xalq-dövlət-Ali Baş Komandan gerçəkliyinin məntiqi nəticəsi idi. Bu vəhdət, bu birlik dünyanın bütün ölkələrindən heyrətlə izlənildi.

Vətən müharibəsi dövründə dünya birliyi Azərbaycanın öz suverenliyini qorumağa qadir qüdrətli dövlət olduğunu bir daha gördü. Hamıya aydın oldu ki, Vətən müharibəsindəki şanlı qələbə Prezident İlham Əliyevin milli maraqlara söykənən uzaqgörən siyasətinin, güclü lider kimi beynəlxalq aləmdə yüksək nüfuzunun və xalq-dövlət-ordu birliyinin parlaq nəticəsidir. Azərbaycan xalqı Vətən müharibəsində öz Prezidentinin ətrafında sıx səfərbər oldu. Bu baxımdan, 44 günlük savaş həm də xalqımızın milli və siyasi həmrəyliyinin təcəssümünə çevrildi. Hər kəs öz sahəsində bu milli mücadiləyə özünün layiqli töhfəsini verdi. Təbii ki, qələbənin əldə edilməsində müasir ordumuzla yanaşı, güclü iqtisadiyyatımız, milli həmrəylik, iqtidar-xalq birliyi mühüm rol oynadı. Azərbaycan xalqı bir millət olaraq öz varlığını müdafiə etdi. Prezident İlham Əliyev qələbənin əldə edilməsində bu birliyin əhəmiyyətini xüsusi vurğulayaraq deyib: ***"Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi".***

Bu gün regionda reallaşdırılan bütün irimiqyaslı beynəlxalq layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Azərbaycan yeni dövrə qədəm qoyub. Bu dövr suverenliyimizin təmin olunduğu 20 sentyabr tarixindən başlayır və yeni hədəflərlə zəngindir. Möhtəşəm Qarabağ zəfəri Ali Baş Komandan, Prezident İlham Əliyevin Ulu Öndərin vəsiyyətinə əməl edərək və xalqımızın 30 illik torpaq nisgilinə son qoymaqla Azərbaycan dövləti və xalqı üçün yazdığı milli dövlətçilik tariximizin ən şərəfli qürur səhifəsidir. Dahi şəxsiyyət Heydər Əliyevin qurduğu, Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan indi haqlı olaraq dünyanın sayılıb-seçilən, etimad və ehtiram göstərilən dövlətlərindən biridir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: ***"Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq".***

Prezidentin həyata keçirdiyi siyasət yalnız ölkə daxilində deyil, eyni zamanda bütün dünyada yaşayan azərbaycanlıların sıx birliyini, həmrəyliyini təmin etdi. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatları, ayrı-ayrı soydaşlarımız Azərbaycan dövləti ətrafında bir yumruq kimi birləşərək möhtəşəm qələbənin əldə olunmasına öz töhfələrini verdilər. Azərbaycan Respublikasının Prezidenti Qarabağ müharibəsində həm Ali Baş Komandan missiyasını yüksək səviyyədə həyata keçirməklə, həm də informasiya cəbhəsində apardığı qətiyyətli mübarizə ilə dünya liderliyi miqyasında qüdrətli bir dövlət xadimi olduğunu isbat etmişdir. Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi müstəqillik tariximizin ən əlamətdar hadisəsi oldu. Ali Baş Komandan İlham Əliyevin müəllifliyi, ordumuzun rəşadəti, hərbçilərimizin qəhrəmanlığı hesabına qazanılan bu zəfər müstəqillik tariximizi daha da şərəfləndirdi, xalqımıza fəxarət bəxş etdi. Bu qələbə bir daha təsdiqlədi ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayır.

Ulu Öndər Heydər Əliyev xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş müstəqil Azərbaycan dövlətini miras qoydu. İnsanların ürəyində çoxdan heykəlləşən Ümummilli Liderimizin xatirəsi Azərbaycan durduqca yaşayacaqdır. Böyük yaradıcı gücə malik olan Heydər Əliyev siyasəti bu gün olduğu kimi, gələcəkdə də Azərbaycanı rifaha və tərəqqiyə qovuşduracaqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi: ***"Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına layaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri vardır. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".***

**Məhəbbət MİRZƏYEVA**



# O bizim könlümüzdən ayrılmayan can, ürəyimizin bitməz sevgisidir

2003-cü ilin soyuq dekabr günü Bakı şəhərinin üzərinə sanki bir sükut çökmüşdü. O səs-küylü şəhər sanki susmuşdu. Yol kənarlarında yüzlərlə insan toplaşıb Onun yolunu gözləyirdi. Xalqın Heydər Əliyevə olan sevgisi göz yaşına dönüb yanağına süzülmüşdü. Əbədiyyətə yollanan Ulu Öndərin tabutunun keçəcəyi yollara sərilən güllər, qərənfillər, arxasınca Fəxri xiyabana gedən insan seli... Bunun bircə adı var – xalq sevgisi. Həmin gün axşam qaranlıq düşənə kimi xalqımızın və dövlətimizin xilaskarı, müasir Azərbaycanın memarı, uşaqlıq xatirələrimin qəhrəmanı Heydər Əliyevin məzarının başına getmək üçün insan selinin azalmasını gözlədim. Gecə saatlarında ay işığında gül-çiçəklərdən ucalan bir dağın – məzarın qarşısında dayanmışdım. Canı, varlığı qədər sevdiyi Azərbaycanın hər qarışında bitən çiçəklərin hamısı sanki toplanıb Onun məzarına "gəlmişdi". Bircə Şuşadan, Laçından, Kəlbəcərdən başqa. Güllərdən ibarət o dağa – xalqın Ulu Öndərinə olan sevgisindən yaranan o gül dağına baxanda ürəyimdən keçən "Bütün çiçəklərdən var, bircə xarıbülbül yoxdur" sözləri oldu.

Bəli, bircə xarıbülbül yox idi. O an Ulu Öndərin son çıxışındakı sözləri duydum sanki: ***"Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək".***

Onun axıra çatdıra bilmədiyi ən böyük taleyüklü məsələ Azərbaycanının bütövlüyü, Şuşaya, Kəlbəcərə getmək isə ən böyük arzusu idi. Damarında qanla birlikdə Vətən sevgisi axan hər bir azərbaycanlı kimi. Bu xalq həmin gün müstəqil Azərbaycanın böyük oğlunu, ömrünün yarısından çoxunu xalqına fəda edən vəfalı övladını cismən itirib, onu çox sevdiyi Vətən torpağına tapşırsa da, ayrılmadı könül candan, çünki könülü candan ayırmağa gücü yetməz ölümün.

O ki bir xalqın xilasedicisi, atasıdır. Bu Vətənin bütövlüyü, zəfəri, xoş gələcəyidir. Onun gəlişi ilə aydınlanmışdı qaranlıq günlərimiz. Soyuq sinif otaqları işıqlı, isti məktəblərlə əvəz olunmuşdu. Yaşadığımız rayonun hər yerinə düşən, uşaqları şəhid edən "alazan"ların səsi Onun gəlişindən sonra kəsilmişdi. Torpağımıza göz dikən düşmənin gözü dahi rəhbərin gəlişi ilə kor olmuşdu. İsti çörək gəlmişdi təknəmizə, soyuq qış gecələri isinmişdi. Səngərdə döyüşən əsgər Heydər Əliyevi öz yanında görüb daha da cəsarətli olmuşdu. Evindən didərgin düşən insanlar Ona sığınıb təsəlli tapmışdılar. İnanmışdılar öz evlərinə dönəcəklərinə. Qardaş qanı dayanmışdı Heydər Əliyevin gəlişi ilə. Azərbaycanı yox olmaqdan qurtarmışdı.

Həmin gündən sonra aydınlıq olmuşdu bu xalqın sabahları və olacaqdı da. Biz bunu yaşayıb gördük. Yaşadıq və zaman dahi rəhbərin bütün bəlalardan xilas edib ayağa qaldırdığı Azərbaycanı əmin əllərə əmanət etdiyini sübut etdi. Onun bizdən cismən ayrıldığı gündən 17 il sonra bu xalq Ulu Öndərinin vəsiyyətini yerinə yetirən Müzəffər Sərkərdənin dahi rəhbərin məzarı önündə ***"Tapşırıq yerinə yetirildi"***, – dediyini eşidəndə bir daha əmin oldu əmanətin əmin əllərdə olduğuna. Və həmin gün xarıbülbül çiçəyi də gəldi Ulu Öndərin məzarına. ***"Şuşa sən azadsan"*** sözləri ilə...

Həmin gündən, Onun Vətən torpağına əbədiyyən köçdüyü gündən 22 il keçir. Yenə həmin yerdə dayanmışan, dahi rəhbərin məzarı, əzəmətli abidəsinin qarşısında. Yenə tər güllər, yenə insan seli, torpağına, öz ocağına illər sonra dönən gözü yaşlı bir ana əlində bir dəstə çiçəklə, ürəyində minnətdarlıq hissi ilə gəlib Onun ziyarətinə. Dayanıram kənarda və izlədikcə bu mənzərəni gözümün önündə canlanır ilk dəfə dahi rəhbəri çətin günlərdən birində Naxçıvanda görməyim. İnsanların Ona olan inamı və sevgisi gəlir gözlərim önünə. Və öz-özümə deyirəm ki, bu xalqın qəlbinin sönməz əbədi günəşi, vəfalı oğlu, bu Vətən var olduqca, var olacaqsan. O an sanki səsini duyuram dahi rəhbərin ***"Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda həmişə olacağam".*** O hər zaman var olacaq, çünki bu Vətənin hər daşında, torpağında Onun izi var. Çünki başımız üstə dalğalanan müqəddəs bayraq ilk dəfə xalqın Heydər oğlunun əllərində göylərə yüksəlib. O dirçələn, çiçəklənən Azərbaycandır. O, Qarabağda yanıb düşməni kor edən sönməz günəşdir. O bizim könlümüzdən ayrılmayan can, ürəyimizin bitməz sevgisidir. Bu sevgi – Heydər Əliyev sevgisi bizim ürəyimizdən övladlarımıza keçəcək və daim yaşayacaq.

✍ **Ramiyə ƏKBƏROVA**

***Dünya yaranandan bəri tarix haqqında yazanlar çox olsa da, tarix yaradan və tarixin axışını dəyişənlərin sayı çox azdır. Çünki tarixi yaratmaq Tanrı tərəfindən seçilən insanlara həvalə edilir. O da belə insanlardan idi. Tanrının Azərbaycan xalqına bəxşi idi Ulu Öndər. Bu gün insanlar həmin tarixi vərəqlədikcə Heydər Əliyev zəkasının, uzaqgörənliyinin, müdrikliyinin şahidi olurlar. XX əsr müstəqillik tariximizin yaddaşında Heydər Əliyev fenomeni özünəməxsus yer tutmuşdur. Hələ 90-cı illərin əvvəllərində müstəqilliyinə yenicə qovuşmuş Azərbaycan xalqını qarşıda çətin və məşəqqətli illər gözləyirdi. Bir tərəfdən keçmiş SSRİ-nin varisi Rusiya kimi nəhəng qonşumuz, digər tərəfdən separatçı Ermənistan, daxildən isə dövləti parçalamağı qarşılarına məqsəd qoymuş bir çox ölkələrin siyasətinə xidmət edən qruplar hakimiyyət uğrunda mübarizə aparırdılar.***

# Müstəqil Azərbaycanın bütün sahələrində Heydər Əliyevin izi var

1993-cü ilin əvvəllərində hakimiyyət böhranı yaşayan bu gənc respublika dövlətçiliyini itirmək təhlükəsi yaşayırdı. Erməni işğalçıları tərəfindən torpaqlarımızın bir hissəsinin zəbt edilməsi, eyni zamanda daxili intriqalar hakimiyyət böhranını dərinləşdirirdi. Belə olan halda xalq öz xilaskarına üz tutdu. Beləliklə, 1993-cü ilin iyunun 9-da xalqın təkidi və tələbi ilə Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Naxçıvandan Bakıya gəldi. Xalqımız bu qanlı-qadalı günləri geridə buraxdı. Xalqını canından belə çox sevən müdrik siyasətçi dəhşətli hadisələrin gözlənilən bəlalarından xalqımızı zamanındaca xilas etdi. İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin Sədri seçildi. Bütün çətinliklərə baxmayaraq, O, xalqın qurtuluş missiyasını cəsarətlə öz üzərinə götürdü. Beləliklə, 15 iyun Azərbaycanın tarixinə "Milli Qurtuluş Günü" kimi daxil oldu və 1997-ci ildən rəsmi bayram kimi qeyd edilməyə başlandı.

Həmin dövrdə müstəqillik qazanmağımız ilkin şərt idisə, ən vacib məsələ onu qoruyub inkişaf etdirmək və baş verəcək təhlükələrdən qorumaq idi. O bunu bacaracaqdı, Azərbaycan xalqı buna inanırdı. Çünki hələ sovetlər dönəmində Ulu Öndər hakimiyyətə gələnə qədər ən geridə qalan respublikalardan biri sayılan Azərbaycan qısa müddətdə iqtisadi artım tempinə görə orta ittifaq səviyyəsini ötdü. Heydər Əliyevin həyata keçirdiyi titanik və kompleks fəaliyyət nəticəsində Azərbaycan ittifaq büdcəsindən dotasiya almayan iki respublikadan birinə çevrilmişdi.

1993-2003-cü illərdə dahi rəhbər planetin nadir şəxsiyyətlərindən biri olduğunu növbəti dəfə sübuta yetirdi. Ümummilli Liderin mükəmməl idarəçilik məktəbi sayəsində ölkəmiz keçid dövrünün çətin labirintlərindən uğurla çıxdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı. Ulu Öndərin müdrik siyasəti sayəsində düşmənlərin aramsız təxribatlarına, pozuculuq əməllərinə baxmayaraq, Azərbaycandakı müxtəlif mədəniyyətlərin, fərqli dünyagörüşlərin toqquşması baş vermədi, ölkəmizdə tolerantlıq başlıca meyar olaraq qaldı.

Ümummilli Lider strateji hədəfləri zərgər dəqiqliyi ilə müəyyənləşdirmək və onları kompleks şəkildə həyata keçirmək bacarığı ilə fərqlənirdi. Dövlət siyasəti, ictimai-siyasi sabitlik, iqtisadi və elmi-texniki tərəqqi, təhsil, müasir və güclü ordu, kadr hazırlığı, xalqın rifahı, milli dəyərlər – bütün bunlar Ümummilli Lider Heydər Əliyevin başlıca strateji hədəflərindən idi. Bu gün tam əminliklə demək olar ki, Azərbaycan bütün bu hədəflərə yetişib.

Heydər Əliyev milli dövlətçiliyimizin fəlsəfəsini yaratdı. Ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərqərar oldu. Məhz belə mürəkkəb şəraitdə Heydər Əliyevin siyasi iradəsi Azərbaycanın Dövlət Müstəqilliyinin qarantına çevrildi.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra qarşıda hələ görülməli mühüm tədbirlər – dövlət müstəqilliyinin təmin olunması, xalqı düçar olduğu müharibədən sülh danışıqları yolu ilə qurtarmaq üçün daxili və xarici siyasəti həyata keçirmək, dağıdılmış və talanmış iqtisadiyyatı bərpa etmək dayanırdı.

Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz sosial-iqtisadi, siyasi və mənəvi tədbirlərin nəticəsi kimi Milli Ordunun formalaşdırılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı. Xalq öz liderini ölkə başçısı görmək arzusunda idi. 1993-cü ilin oktyabr ayının 3-də Heydər Əliyev ümumxalq səsvermə yolu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Ulu Öndər Azərbaycanı qüdrətli, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirdi. Onun rəhbərliyi ilə 1995-ci ilin noyabrında müstəqil dövlətin ilk Konstitusiyası qəbul olundu. Hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya aktının qəbulundan sonra ölkədə genişmiqyaslı islahatların aparılmasına başlanıldı, bütün sahələrdə inkişaf dalğasının yaranmasına təkan verildi. Azərbaycan dünya xəritəsində batmış bir ölkədən dünyanın enerji xəritəsini dəyişə biləcək bir ölkəyə çevrildi.

2003-cü ildən ötən dövr Ümummilli Lider Heydər Əliyevin ideya və idarəçilik məktəbinin əbədiyaşarlığının növbəti sübutu oldu. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı Heydər Əliyev yolu ilə apararaq regionun lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevirib. Bu gün ölkəmiz sürətlə inkişaf edən iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi, zəngin mədəniyyəti və ənənəvi tolerantlığı ilə bütün planetin diqqət mərkəzindədir. Bu gün müstəqil Azərbaycan Respublikasının bütün sahələrində Heydər Əliyev izi görünür. Dövlətimiz Heydər Əliyev ideyaları ilə yaşayır və Onun dövlətçilik konsepsiyası əmin əllərdədir.

✍ **Turan MƏMMƏDLİ**

# Bratislava görüşü:

## Azərbaycan-Slovakiya strateji tərəfdaşlığında yeni səhifə

***Azərbaycan dövləti xarici siyasətində Avropa ölkələri ilə siyasi, iqtisadi münasibətlərə, ticarət əlaqələrinin genişləndirilməsinə böyük önəm verir, bu xüsusda mühüm təşəbbüs və layihələrlə çıxış edir. Avropa İttifaqının üzvü kimi, Slovakiya ilə hərtərəfli əməkdaşlığın dərinləşdirilməsi respublikamız üçün prioritet məqsədlərdən hesab olunur. Təqdirəlayiq haldır ki, son bir neçə ildə ölkələrimiz arasında həm siyasi, iqtisadi, ticari, həm də mədəni dialoq güclənərək ümumi regiona faydalar verməkdədir. Prezident İlham Əliyevin dekabrın 8-də Slovakiya Respublikasına ilk rəsmi səfəri tərəflər arasında mövcud sahələr üzrə əlaqələrin müzakirəsi və strateji tərəfdaşlıq xarakterinə malik münasibətlərin yeni hədəflərinin müəyyənləşdirilməsi baxımından yadda qaldı.***



Azərbaycan-Slovakiya diplomatik münasibətləri 1990-cı illərin əvvəllərindən bəri sistemli inkişaf yoluna qədəm qoyub. Avropa İttifaqının üzvü olan bu ölkə Azərbaycanın müstəqilliyini 1992-ci ilin yanvarında tanıyıb və tərəflər arasında diplomatik münasibətlər rəsmi olaraq 1993-cü ildə qurulub. Azərbaycanın Slovakiyadakı fəxri konsulluğu isə 2009-cu ilin aprelində yaradılıb. Slovakiyanın ölkəmizdəki səfirliyi 2019-cu ilin oktyabrından, Azərbaycanın Slovakiyada səfirliyi 2023-cü ilin iyulundan fəaliyyət göstərir. Son bir neçə ildə ikitərəfli münasibətlər yeni dəyər, məzmun qazanmaqla yüksək mərhələyə addımlayıb. Bu mənada, 2021-ci ilin sonunda "Azərbaycan Respublikası Hökuməti ilə Slovakiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi, İqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Slovakiya Birgə İşçi Qrupunun təsisi və növbəti dövrdə iclaslarının keçirilməsi də tərəflərin iqtisadi yaxınlaşmasında, faydalı əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynayıb.

Ötən ilin may ayında Slovakiyanın Baş naziri Robert Fitsonun ölkəmizə rəsmi səfəri çərçivəsində Bakıda imzalanmış Strateji Tərəfdaşlığın Qurulması haqqında Birgə Bəyannamə həm siyasi, həm də iqtisadi baxımdan Azərbaycan-Slovakiya əlaqələrini yeni müstəviyə daşıyıb. Məhz bu bəyannamənin praktiki təsirinin nəticəsi olaraq bir neçə ay sonra, daha dəqiq desək, ötən ilin noyabrında COP29 çərçivəsində Slovakiya Prezidenti Peter Pelleqrini Azərbaycana səfər edib. Səfər çərçivəsində noyabrın 11-də iki ölkə prezidentlərinin görüşündə Azərbaycan ilə Slovakiya arasında iqtisadi-ticari əlaqələrin inkişaf etdiyi bildirilib, birgə sənaye müəssisələrinin yaradılması məsələsi, IT sahəsində əməkdaşlıq, Qarabağda quruculuq layihələrində Slovakiya şirkətlərinin iştirakı diqqət mərkəzində olub. Eyni zamanda Azərbaycanla Slovakiya arasında nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin intensivliyi vurğulanıb. Dekabrın 8-də Bratislavada Prezident İlham Əliyev Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə təkbətək və geniştərkibli görüşlərinin ardından mətbuata bəyanatında da birgə bəyannamənin ikitərəfli münasibətləri yüksək səviyyəyə qaldırdığını qeyd etdi, həmin sənədin imzalanmasından sonra bütün sahələrdə fəal əməkdaşlığın yarandığını vurğuladı. Sitat: ***"Qeyd etdiyiniz kimi, keçən il Slovakiya və Azərbaycan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalamışlar. Bu, əlaqələrimizi ən yüksək səviyyəyə qaldıran bir sənəddir və o sənədin imzalanmasından sonra biz bütün istiqamətlər üzrə çox fəal əməkdaşlığı görürük".***



Azərbaycanla Slovakiya arasında əməkdaşlıq, əsasən, enerji, müdafiə və informasiya texnologiyalarına dair sahələri əhatə edir. Təqdiredici məqamdır ki, bu Avropa ölkəsi Azərbaycanın Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilər üzrə apardığı Böyük Qayıdış siyasətinə də dəstək verir. Slovakiya şirkətlərinin Ağdam rayonunun Baş Qərvənd kəndinin "ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulması prosesində iştirakı iki ölkə arasında mövcud faydalı əməkdaşlığın mühüm göstəricilərindəndir. Eyni zamanda bu il noyabrın 8-də Bakıda, Vətən müharibəsində qələbənin beşinci ildönümünə həsr olunmuş paradda Slovakiyanın Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinakın iştirakı strateji tərəfdaşlığın, dostluq münasibətlərinin təzahürü olmaqla respublikamızın haqq işinə dəstəyin növbəti ifadəsidir.

Slovakiya Azərbaycanın Cənub Qaz Dəhlizi layihəsinə qoşulan 8 Avropa İttifaqı üzvündən biridir, 2024-cü ildən etibarən bu ölkəyə mavi yanacaq nəqlinə başlanılıb. Bir faktı da qeyd etmək yerinə düşər ki, təkcə ötən il Azərbaycan Aİ ölkələrinə 12,9 milyard kubmetr təbii qaz ixrac edib. Bu da qoca qitənin enerji təhlükəsizliyində Azərbaycanın rolunun ilbəil daha da gücləndiyini göstərən faktor kimi Avropa enerji bazarında böyük pay sahibi olduğunu təsdiqləyir. Dünyada boru kəmərləri ilə ixrac edilən qazın təchizatçısı olaraq birinci yerdə qərarlaşan respublikamız bu gün, ümumilikdə, 14 ölkənin mavi yanacağa olan tələbatını ödəyir, ümumi qaz ixracı 25 milyard kubmetr səviyyəsindədir. Prezident İlham Əliyev Bratislavada mətbuata bəyanatı zamanı Azərbaycanın enerji siyasətinin hədəflərini açıqladı, yaxın gələcəkdə digər Avropa ölkələrinə, o cümlədən də Slovakiyaya qaz ixracatının artacağını bildirdi: ***"Onu da bildirməliyəm ki, bizim zəngin qaz yataqlarımız bu gün imkan verir ki, dünyanın bir çox ölkələrinə təbii qazı ixrac edək. Azərbaycan qazını almış ölkələrin sayı 14-ə çatıb. Biz boru kəmərləri ilə ixrac edilən qazın təchizatçı ölkəsi olaraq birinci yerdəyik. Yeni qaz yataqlarının işlənməsi nəticəsində əlavə resurslar əldə ediləcək və təbii ki, həm Slovakiyaya, həm də onun qonşularına Azərbaycan qazının təchizatı daha da böyük həcmdə mümkün olacaqdır".***

Azərbaycan bu gün yaratdığı müasir infrastrukturu, nəqliyyat sektoruna qoyduğu sərmayə ilə Şərq-Qərb Nəqliyyat Dəhlizinin önəmli parçasına çevrilib. Həmçinin respublikamız dünya nəhənglərinin, xüsusilə də Çinin böyük marağında olan Orta Dəhliz layihəsində fəal iştirak edir. Orta Asiyanı Avropa ilə birləşdirən ən etibarlı və ən təhlükəsiz marşrutun əsas hissəsi kimi Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsini müəyyənləşdirir. Ölkəmizin uzaq gələcəyə hesablanmış – informasiya texnologiyaları, "yaşıl enerji" gündəliyi, enerji, müdafiə təhlükəsizliyi və digər istiqamətlər üzrə hədəfləri bütün Avropa ölkələri kimi Slovakiya ilə münasibətlərində də yeni perspektivlər açır. Respublikalarımız yaxın gələcəkdə sözügedən sahələrə dair əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduqlarını artıq ortaya qoyublar. Əminliklə demək olar ki, Azərbaycan liderinin Slovakiyaya ilk rəsmi səfəri bu nöqteyi-nəzərdən dost ölkələrimizin əməkdaşlığının daha da dərinləşdirilməsində mühüm yol xəritəsi müəyyənləşdirəcək, Bratislava görüşü strateji tərəfdaşlıqda yeni mərhələnin əsaslarını yaradacaq. Prezident İlham Əliyevin dediyi kimi: ***"Mənim Slovakiyaya rəsmi səfərim əminəm ki, iki ölkə arasındakı əlaqələrə çox müsbət təsir göstərəcəkdir. Siz qeyd etdiyiniz kimi, bu, Azərbaycan Prezidentinin Slovakiyaya ilk rəsmi səfəridir. Əlbəttə ki, səfər zamanı həm təkbətək formatda, həm nümayəndə heyətlərinin iştirakı ilə apardığımız danışıqlar bir daha onu göstərir ki, Slovakiya və Azərbaycan, sözün əsl mənasında, dost ölkələrdir və strateji tərəfdaşlardır".***

**Nail ƏSGƏROV**

# "Qayıdış" yalnız doğma yurda dönüş deyil, həm də tarixi yaddaşın bərpasıdır



Tarixi ədalətin bərpası zaman alsa da, 44 günlük Vətən müharibəsindəki zəfərimiz və bu zəfərin fonunda yaranan reallıqlar onu göstərdi ki, biz heç zaman öz torpaqlarımızdan əl çəkmədik, yurd sevgimizi nəsillərdən-nəsillərə miras olaraq ötürdük. Vətən müharibəsinin bəxş etdiyi zəfər xalqımızda böyük ümidlər yaratdı, illərlə Qarabağ ağrısının arxasında qalmış tarixi gerçəkliklərə işıq saldı. Qısa zaman ərzində beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan "Qərbi Azərbaycana qayıdış" konsepsiyası qəbul olundu. İdeya müəllifi Prezident cənab İlham Əliyev olan bu konsepsiyanın işığında mühüm tədbirlər həyata keçirilir. Əsas məramı indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların öz yurdlarına sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasını təmin etməkdən ibarət olan "Qərbi Azərbaycana qayıdış" konsepsiyasından irəli gələn vəzifələrin həlli istiqamətində sistemli şəkildə görülən işlər bizi əzəli ata-baba yurdlarımıza daha da yaxınlaşdırır. Haqq səsimiz bütün dünyada duyurulur. 8 avqust 2025-ci il tarixdə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Vaşinqtonda keçirilən üçtərəfli görüş Cənubi Qafqazda uzunmüddətli münaqişənin həllinə doğru atılan ən əhəmiyyətli addımlardan biri olmaqla yanaşı, Zəngəzur dəhlizinə regional və beynəlxalq kontekstdə yeni münasibəti də ortaya qoydu.

### *Tarixə baxış*

Qədim dövlətçilik və mədəniyyət tarixinə malik Azərbaycan xalqı son iki əsrdə dəfələrlə məhrumiyyətlər, deportasiyalar və soyqırımları ilə üz-üzə qalmış, ermənilərin Azərbaycanın əzəli torpaqlarına köçürülməsindən sonra – 1905-1907, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə azərbaycanlılara qarşı törədilən qırğınlar və qanunsuz köçürmələrlə nəticələnmişdir. Əhalinin heç bir rəyi nəzərə alınmadan, hüquq normalarına zidd olan bu qərarların icrası zamanı minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar.

Azərbaycanlıların deportasiya və soyqırımı cinayətlərinə ilk dəfə hüquqi-siyasi qiymət verən Ulu Öndər Heydər Əliyev 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərman imzalamışdır.

### *Hər şey ədalət naminə dəyişəcək*

Çox da uzaq olmayan keçmişdə baş verən hadisələr, qazanılan tarixi zəfər onu göstərdi ki, ədalət gec-tez öz yerini tapır və bunun qarşısını heç bir qüvvə ala bilməz. Əgər xalq öz keçmişini unutmayıbsa, öz əzəli ata-baba torpağına qəlbən bağlıdırsa və bu xalqın daim yanında olan, onun arzu və istəklərini həyata keçirən qətiyyətli rəhbəri varsa, aydın sabahlara da yol görünür. Hər zaman nitqlərində qərbi azərbaycanlıların bir gün öz doğma torpaqlarına qovuşacaqlarını inamla ifadə edən Ulu Öndərin 2002-ci ildə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində məcburi köçkünlər üçün inşa edilən məhəllənin açılışındakı nitqini çoxları xatırlayır: ***"Heç bir şey olduğu kimi qalmır. Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm".***

Sürətlə dəyişən dünya düzənində öz layiqli yerini tutan və bütün fəaliyyətini ədalətə, haqqa, xalqlar arasında sülhə, dostluğa kökləyən Prezident İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət bir daha onu göstərir ki, bu bölgədə hər şey ədalət naminə dəyişəcək!

### *Əcdadların izi ilə*

Prezident İlham Əliyev vurğulayıb: ***"Əlbəttə ki, biz əcdadlarımızın yolu ilə getməliyik. Onların ruhlarını həmişə şad etməyə çalışmalıyıq. Azərbaycan xalqının üstünlüyü ondadır ki, biz öz qədim ənənələrimizə sadiqik. Bu nöqteyi-nəzərdən hər birimiz üçün onun ailəsi, onun ulu babaları, əcdadları böyük əhəmiyyət kəsb edir, o cümlədən mənim üçün. Orada babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm".***

12 yanvar 2022-ci ildə yerli telekanallara müsahibəsində cənab Prezident deyib: ***"Babamın məzarını ziyarət etməklə, eyni zamanda ürəyimdə olan sözləri dedim. Baxmayaraq ki, mən babamı görməmişəm, o, həyatdan gedəndə mən hələ doğulmamışdım. Amma bildiyiniz kimi, o, Zəngəzurda doğulmuşdur, erməni etnik təmizləmə siyasətinin də qurbanı olmuşdur, onun ailəsi məcburən oradan köçüb Şahbuza, ondan sonra Naxçıvanda yerləşmişdir".*** İşğal altında olan ərazilərin azad olunmasından sonra ***"Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim"***, – deyən Prezidentin tarixi ərazilərimizdən deportasiya olunan insanlarımızın ləyaqətli qayıdışının təmin olunması ilə bağlı qətiyyətli mövqeyinin dəfələrlə şahidi olmuşuq. Bu eyni zamanda əcdadlarının ruhu dolaşan o torpaqlara, doğma od-ocağa qayıtmağın həsrəti ilə yaşayan insanlarımızın arzusudur.

Bunlar tarixi faktlardır. Bir ucu İrəvan, Göyçə, Zəngəzur, Dərələyəz olan tarixi torpaqlarımız erməni məkrinin qurbanı olub. Yer adları dəyişdirilib, tarixi abidələrimiz, ata-babalarımızın qəbirləri dağıdılıb. Lakin o torpaqların suyu ilə, havası ilə böyümüş, yurd yerlərinin insanları var, şahidlər var. O torpaqların dərin qatlarında tariximiz var, silinməz izlərimiz, Azərbaycançılıq möhürü var. Bunları silməyə heç kimin gücü yetməz.

### *Biz öz tarixi torpaqlarımıza tanklarla yox, avtomobillərlə qayıtmalıyıq*

Ölkəmiz öz müstəqilliyini əldə etdikdən sonra ağır sınaqlarla üz-üzə qalsa da, üzüağ çıxmağı bacardı. Qayıdışı ilə canından çox sevdiyi Vətəninə, qibləgahına əmin-amanlıq, dinclik gətirən Ulu Öndər gələcəyini də etibarlı əllərə əmanət etdi. Dahi rəhbərin siyasi kursunu uğurla davam etdirən ölkə başçısı İlham Əliyev verdiyi hər vədin, dediyi hər sözün arxasında durduğunu öz əməli fəaliyyəti ilə sübuta yetirir. 200 illik tarixi gedişatı dəyişən, itirilmiş torpaqları qaytaran, suverenliyin bərpasına müvəffəq olan ölkə başçısının AMEA-nın 80 illik yubiley yığıncağındakı nitqi Qərbi Azərbaycana qayıdış məsələsinin Azərbaycan üçün həm ümummilli, həm də dövlət əhəmiyyətli məsələ olduğunu bir daha ortaya qoydu: ***"Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır".***

Dövlət başçısının qəti mövqeyi Qərbi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması və milli yaddaşımızın qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus olan tarixi və mədəni irs, o cümlədən məscidlər, qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib. Mədəni irsi məhv etməklə, toponimləri dəyişməklə Qərbi Azərbaycan torpaqlarını pasportlaşdırmağa cəhd edən mənfur ermənilər bir şeyi unudublar ki, xalqın genetik yaddaşı, miras kimi özü ilə bərabər daşıdığı ənənə, ruhunda bəslədiyi yurd sevgisi tarixi gerçəklikləri yaşatmağa bəs edər.

### *"Qayıdış" konsepsiyası beynəlxalq müstəvidə*

Dekabrın 5-də Bakıda Qərbi Azərbaycan İcması tərəfindən "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası – ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda III beynəlxalq konfransın keçirilməsi "Qayıdış konsepsiyası" əsasında həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır. 60-dan çox ölkədən 100-dən artıq xarici qonaq və yerli ekspertlərin iştirak etdiyi konfransda Ermənistan ərazisindəki azərbaycanlılara məxsus mədəni irsin vəziyyəti, bu irsin qorunması və dirçəldilməsi, həmçinin qayıdış hüququnun beynəlxalq hüquq və mədəni irsin müdafiəsi kontekstində qiymətləndirilməsi müzakirə olundu. Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətində deyilir: ***"Bu gün Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdışının Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda, Qaçqınların statusu haqqında Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıdış hüququ çərçivəsində təmin edilməsi, eləcə də mədəni irsin bərpası və qorunması ilə bağlı beynəlxalq ictimaiyyətin, o cümlədən BMT-nin ixtisaslaşmış qurumlarının iştirakı ilə prosesin başladılması üçün səylərin artırılması vacibdir. Çünki qayıdış hüququ insan hüquqlarının təməl prinsiplərindən biridir. Bu hüququn təmin edilməsi təkcə doğma yurda fiziki dönüş deyil, həm də toplumun mənəvi bütövlüyünün, mədəni irsinin və tarixi yaddaşının bərpası deməkdir".*** Beynəlxalq platformaya çevrilən ənənəvi beynəlxalq konfransın işinə uğurlar arzulayan ölkə başçısı keçiriləcək müzakirələrin mədəni irsin qorunmasına və qayıdış hüququ barədə anlaşmaya, soydaşlarımızın doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə qayıdışına töhfə verəcəyinə, barışıq və sülhə aparan yolda mühüm addım olacağına əminliyini bir daha vurğulayıb. Milli yaddaşımızın, mədəni irsimizin qorunması və qayıdış hüququnun təmin olunması mövzusunda Qərbi Azərbaycan icmasının keçirdiyi III beynəlxalq konfrans dünya ictimaiyyətinin diqqətini bir daha tarixi həqiqətlərə çəkmək və bu yolda real addımların ədalət naminə atıldığının bir daha uğurlu nümayişi oldu.

### *Ədalətə, barışığa və sülhə aparan yol*

Məlumdur ki, Naxçıvan ta keçmiş zamanlardan üzü bəri (əsasən də, 1905-ci ildən) Qərbi Azərbaycandan məcburi köç edənlərin, qaçqınların pənah, ümid yeri olub. Kompakt şəkildə daha çox Culfa, Ordubad, Şahbuz rayonlarında məskunlaşsalar da, muxtar respublikamızın, demək olar ki, bütün bölgələrində qərbi azərbaycanlılara rast gəlmək mümkündür.

Təsadüfi deyil ki, "Qərbi Azərbaycana qayıdış" I və II festival-konqresi Naxçıvanda keçirildi. Milli dəyərlərin, tarixi-mədəni irsin, yurd həsrətinin, Vətən sevgisinin, əzmin, səbrin, iradənin cəm olduğu hər iki festival möhtəşəmliyi ilə yadda qaldı. Bu festivallar həm də əzəli torpaqlarımızın – Qərbi Azərbaycanın bir addımlığında birliyimizin göstəricisi, yurd yerlərinə qayıdışın addım səsləri idi.

Daha bir addım səsinin sevincini bu il dekabrın 5-də yaşadıq. 1992-ci ildən sükuta qərq olan, Naxçıvanı Zəngəzurla birləşdirən əsas nöqtələrdən biri – Salamməlik stansiyası yenidən doğmalarını öz ağuşuna aldı. Şahidi olduğu hadisələrin, yaşadığı dərin sükutun ağırlığından çökmüş stansiya həmin gün əzəmətini dağlardan, sevgi payını insanlardan, səsini işləyən texnikalardan aldı. Naxçıvan Muxtar Respublikasını Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək stansiya ərazisində tikinti işlərinə start verildi. Tikinti işləri 188 kilometrlik dəmiryol xəttini əhatə edir. Bu il avqustun 8-də Vaşinqtonda "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) açılmasına dair razılaşma çərçivəsində dəhliz boyunca dəmir yolu əlaqəsi bərpa ediləcək. Zəngəzur dəhlizi həm də "Şimal-Cənub" dəhlizinin əsas halqalarından birini təşkil edəcək. Tarixi ədalətə, barışığa, sülhə aparan bu yolla gedənlər heç zaman uduzmayacaq. İnsanlığı, dünyanı xilas edən yeganə qüvvə haqq-ədalətə inam, sülhə xidmətdir. Azərbaycanın sülhsevər siyasətindən örnək götürmək isə heç zaman gec deyil. İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə qayıdışı isə birbaşa ədalətin və sülhün bərqərar olunmasına xidmət edir. Bu dönüş yalnız yurda dönüş deyil, milli yaddaşımıza, soykökümüzə, mənəvi irsimizə dönüş olacaq. Qərbi Azərbaycan İcmasının sülhsevər üzvləri öz ata-baba yurdlarına qayıdacaq və özləri ilə ora quruculuq, dinclik, sülh aparacaqlar. Qarabağa və Şərqi Zəngəzura apardığımız kimi...

**Ruhiyyə RƏSULOVA**

**Ümummilli Lider Heydər ƏLİYEV: *"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqa arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".***

# Ulu Öndərə ünvanlanmış məktublar xalqın öz liderinə sonsuz etimadını yaşadan canlı salnamədir




Naxçıvanı hər zaman qəlbinə yaxın bilən, bu qədim yurdun inkişafı naminə ömrünü səfərbər etmiş Ulu Öndər Heydər Əliyevin ideyaları bu gün də yolumuza yön verir. Şəhərin mərkəzində ucalan Heydər Əliyev Muzeyi isə dahi rəhbərin nümunəvi həyat yolunu, zəngin irsini və çoxşaxəli fəaliyyətini əks etdirən ən dəyərli məkan kimi seçilir. Muzeyi ziyarət edərkən diqqətimizi xüsusilə bir bölmə cəlb edir: Ulu Öndərə ünvanlanmış məktublar. Bu məktublar xalqın ona olan dərin güvən hissinin, etimadının və minnətdarlığının ifadəsi olmaqla yanaşı, ölkə və millət üçün çox əhəmiyyətli tarixi şəxsiyyət olduğunu bir daha nümayiş etdirir. Milyonlarla insanın ümid dolu baxışları bir nöqtəyə, dövlətçiliyimizin taleyini dəyişə biləcək şəxsə yönəlmişdi. Müstəqilliyini böyük qurbanlar bahasına qazanan xalq bu yolun davamında məhz dahi lider Heydər Əliyev kimi təcrübəli, qətiyyətli və uzaqgörən bir lider görmək istəyirdi.

Tarixi vərəqləyən zaman yadımıza Ulu Öndərin ***"Mən ömrümün qalan hissəsini də bundan sonra xalqıma həsr edəcəyəm"*** sözlərini xatırlayırıq. Dahi rəhbərin hakimiyyətə qayıdışı ölkənin taleyində dönüş nöqtəsi oldu. Onun siyasi səhnəyə yenidən qayıtdığı ilk gündən Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi istiqamətində ən vacib addımlar atıldı. Ölkədə dərin siyasi-iqtisadi islahatların həyata keçirilməsinə başlanıldı, müstəqil dövlətin inkişaf yoluna mane olan daxili və xarici təhlükələrə qarşı isə qəti və ardıcıl mübarizə aparıldı. Ziyalılar, sənət adamları, təsərrüfat işçiləri, bir sözlə, xalqın hər bir nümayəndəsi Heydər Əliyev dühasına inandı və ümid etdi ki, yalnız belə bir təcrübəli dövlət xadimi müstəqil Azərbaycanı gözləyə bilən bütün təhlükələrdən xilas etməyə qadirdir.

Muzeydə nümayiş etdirilən məktubları oxuyan zaman məlum gerçəyi bir də xatırlayırıq: 1990-cı ilin əvvəlləri Azərbaycan xalqının yaddaşına həm milli mübarizə, həm də ağır sınaqlar dövrü kimi həkk olunub. Həmin illərdə Naxçıvan Muxtar Respublikasında blokada şəraiti hökm sürür, siyasi gərginlik hər gün yeni risklər yaradırdı. Məhz belə bir zamanda azərbaycanlı soydaşlarımızın Mehri rayonunda girov götürülməsi bölgədəki real təhlükənin göstəricisi idi. 1991-ci ilin 16 dekabrında Bakıdan Naxçıvana gələn sərnişin qatarının Mehri dəmir yolu stansiyasında Ermənistan silahlı qüvvələri tərəfindən saxlanılması, günahsız insanların girov götürülməsi bölgədə gərginliyi daha da artırmışdı.

Muxtar respublika belə bir şəraitdə olduğu bir vaxtda bu cür insident həm psixoloji, həm də humanitar təzyiq vasitəsi sayılırdı. Lakin həmin günlərdə vəziyyətin gedişatını bir faktor dəyişdi ki, bu da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin prinsipial siyasi mövqeyi və qətiyyətli diplomatiyası idi. "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat Mərkəzinin məlumatı" başlıqlı yazını oxuyan zaman aydın olur ki, Ulu Öndərin Ermənistan Prezidenti Levon Ter-Petrosyanla apardığı birbaşa telefon danışıqları nəticə vermiş və girov götürülmüş üç nəfər dərhal muxtar respublikaya qaytarılmışdır.

Bu o dövrün reallığında silahlı qarşıdurmaların, inamsızlığın və xaosun hökm sürdüyü bir mərhələdə böyük diplomatik uğur sayılırdı. Yazının ardını oxuduğumuz zaman 1992-ci il 6 yanvar tarixdə Naxçıvanın Ordubad rayonu ilə Ermənistanın Mehri rayonu sərhədində iki ölkənin hüquq-mühafizə orqanlarının nümayəndələri arasında razılaşdırılmış görüşün keçirildiyini görürük. Bu görüş nəticəsində girov saxlanılan sonuncu iki azərbaycanlı, Əsədov Xanbala Ağabala oğlu, Babayev Qərib Səhrab oğlu Naxçıvan tərəfinə təhvil verilib. Bu hadisə təkcə girovların azad edilməsi ilə məhdudlaşmadı, elə həmin tarixdən etibarən Bakı-İrəvan dəmiryolu xəttinin Mehri-Naxçıvan sahəsi üzrə yükdaşımalar bərpa olundu. Bu, münaqişə şəraitində belə dialoqun mümkünsüz olmadığını göstərən mühüm fakt idi. Bu məlumat o dövrün siyasi mənzərəsini geniş şəkildə açır.

Dəmir yolu xəttinin açılması və girovların qaytarılması bir daha sübut etdi ki, Naxçıvanın taleyində Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi həlledici rol oynayıb. Bu hadisə həm də muxtar respublikanın blokada şəraitində belə öz mövqeyini qorumağa çalışdığını, danışıqlar masasında güclü tərəf kimi çıxış etdiyini göstərirdi. Dövlətçilik təcrübəsinin təməli məhz belə anlarda qoyulur: risklər böyük, imkanlar isə məhdud olduqda. 7 yanvar 1992-ci il tarixdə Mətbuat Mərkəzi tərəfindən yayılmış və "Heydər Əliyevin imzası ilə təsdiqlənmiş" məlumat Naxçıvanda o günlərin gərgin nəfəsini tam şəkildə hiss etdirirdi. Bu sənəd yalnız tarixi hadisəni əks etdirmir, həm də çətin dövrün siyasi mübarizəsini açıq-aydın gözlər önünə gətirirdi.




Girovların azad edilməsi ilə bağlı atılan addımlar Naxçıvana və bütövlükdə, Azərbaycana verilən siyasi mesaj idi. Xalqın təhlükəsizliyi, insan taleyi və milli maraqlar üçün qətiyyətli liderlik həmişə həlledici rol oynayır. Bu məktublar azərbaycanın bütün rayonlarından ünvanlanırdı. Məktubları oxuyan zaman görürük ki, yalnız 1993-cü ilin gərgin, od-alov içində keçən günlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinə ölkənin müxtəlif bölgələrindən bir-birinin ardınca gələn məktublar bir ailənin fəryadı, bir ananın gözyaşı, bir ömürlük möhnətin izahı idi. Hər kəs bu yurdu ümid yeri kimi görürdü. Azərbaycanın müxtəlif rayonlarından göndərilən bu müraciətlərdə insanların ən böyük istəyi əsir düşənlərin geri qaytarılması idi.

13 may 1993-cü ildə İmişli Rayon İcra Hakimiyyətinin ünvanladığı məktubda 1971-ci il təvəllüdlü Abbas İmamverdi oğlu Qəhrəmanovun taleyi barədə bir məlumat yer alır. 1992-ci ilin avqustunda səfərbərliklə hərbi xidmətə çağırılan Qəhrəmanov təlimləri başa vurduqdan sonra Ağdərə döyüşlərinə göndərilmiş, Mehmanə istiqamətində gedən ağır döyüşlərdə itkin düşmüşdü. Sonradan müxtəlif mənbələrdən toplanan məlumatlar onun Ermənistanın Kirovakan şəhərində əsirlikdə saxlanıldığını göstərirdi. Valideynlərinin tək ümidi isə Naxçıvana, bir sözlə, Heydər Əliyevə ünvanlanan məktuba bağlanmışdı. Məktub ümid dolu bir cümlə ilə sona çatırdı: "A.İ. Qəhrəmanovun əsirlikdən azad olunmasına köməklik göstərməyinizi Sizdən xahiş edirik".

15 aprel 1993-cü ildə Bərdə Rayon İcra Hakimiyyətindən göndərilən məktubda isə başqa bir ailənin müraciəti yer alırdı. 1971-ci il təvəllüdlü, rayonun Şorəlli kənd sakini İlqar Tapdıq oğlu Əliyev 711 nömrəli hərbi hissənin tərkibində döyüşmüş, 7 oktyabr 1992-ci ildə isə Laçının Sus kəndi uğrunda gedən döyüşlərdə itkin düşmüşdü. Ailənin əldə etdiyi məlumata görə, İlqarın da taleyi Abbas kimi İrəvanın Kirovakan bölgəsində ilişib qalmışdı. Bərdə Rayon İcra Hakimiyyətinin başçısı M.M.Əliyevin imzası ilə göndərilən məktub bu sözlərlə tamamlanırdı: "Aldığımız məlumata görə, oğlumuz Kirovakan rayonundadır". Bu bir cümlənin arxasında isə bir ailənin ümidi, nigaran gözləyən valideynlərin fəryadı dayanırdı.



18 may 1993-cü il tarixli növbəti məktub Xətai Rayon İcra Hakimiyyətindən göndərilmişdi. Burada adı çəkilən şəxs həkim Mübariz İlyas oğlu Məmmədov könüllü olaraq silaha sarılan, Ağdərə döyüşlərində iştirak edən və 1992-ci ilin sentyabrında yaralı halda əsir düşən bir döyüşçü idi. Onun həyat yoldaşı Müdafiə Nazirliyinə və müxtəlif qurumlara dəfələrlə müraciət etsə də, dəyişdirilmə prosesi nəticəsiz qalmışdı. Xətai Rayon İcra Hakimiyyəti Heydər Əliyevə bu sözlərlə üz tuturdu: "Onun körpə övladının və cavan həyat yoldaşının mənəvi əzabdan qurtulması üçün Mübariz bəyin dəyişdirilməsi məsələsində bizə yardımçı olmağınızı xahiş edirik".







Bu məktubların hər biri ayrı-ayrı insanların taleləri idi, lakin hamısının içində tək bir ümumi nida vardı əsirlikdə olan "Vətən oğullarının geri qaytarılması". 1993-cü ildə hər məktub taleyin bir qapısını döyürdü, hər imza bir ailənin son ümidi idi. Bu yazışmalar o dövrün siyasi xəttinin yox, millətin yaşadığı faciənin canlı şahidlərindən biridir. Oxuduğumuz məktublar bir daha təsdiq edir ki, həmin dövrdə Ulu Öndərin qətiyyətli iradəsi, zəmanət verən sözü və hər addımında xalqına bağlılığı insanlara güc verirdi. Naxçıvan blokada altında çarpışarkən də, sərhədlər boyunca təhlükə hökm sürərkən də, əsir düşmüş oğulların taleyi hər bir ailənin qəlbini yandırarkən də xalq bir həqiqətə inanırdı. Ulu Öndərə ünvanlanmış yüzlərlə, minlərlə məktub həm o dövrün ağrı-acısını, həm də xalqın öz liderinə sonsuz etimadını yaşadan canlı salnamədir.

Bu məktublar bir daha sübut edir ki, müstəqilliyin ağır yükünü çiyinlərinə alan, xalqın taleyini öz taleyi bilən lider bir millətin dayağı, sığınacaq yeri, ümidi olur. Bu gün biz o məktubların tarixə çevrilmiş fəryadlarını oxuyan nəsil olaraq daha yaxşı anlayırıq ki, dövlətçiliyin möhkəm təməli məhz o çətin illərdə, o sınaqların içində qoyuldu. Heydər Əliyevin siyasi iradəsi təkcə Naxçıvanın deyil, bütün Azərbaycanın xilası üçün həlledici bir qüvvə oldu. Zaman dəyişir, nəsillər yenilənir, amma o illərin dərsləri və Ulu Öndərin ideyaları dəyişməz olaraq qalır. Bu məktublar isə bir həqiqəti daim xatırladır ki, xalqın gücü Ümummilli Lider Heydər Əliyevdən olduğu kimi, Ümummilli Lider Heydər Əliyevin də gücü xalqından gəlirdi. Bu gün də, sabah da, gələcək nəsillər üçün də Onun sönməz ideyaları yolumuzu işıqlandıran əbədi bir məşəldir. Ulu Öndərin adı, irsi və xalqına bəslədiyi sevgi kimi, xalqımızın ona olan hörməti də daim yaşayacaq.



**✍ Bülbül RÖVŞƏNQIZI**
**✍ Rafiq TƏHMƏZ**

**Prezident İlham ƏLİYEV:**

*"Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir."*

# Səlahiyyətli nümayəndə şəhid ailələri üzvləri və qazilərlə görüşüb



Dekabrın 11-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov şəhid ailələri və qazilərlə görüşüb.

Görüşdə şəhidlərə və qazilərə ehtiramını bildirən səlahiyyətli nümayəndə qeyd edib ki, bu kateqoriyadan olan ailələr dövlətimizin xüsusi qayğısı ilə əhatə olunub. Prezident cənab İlham Əliyevin diqqət və tapşırığı ilə şəhid ailələrinin, müharibə əlillərinin, veteranların sosial təminatı və rifahının yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə ardıcıl işlər həyata keçirilir. Şəhid ailələri və müharibə iştirakçılarının sosial təminatının davamlı olaraq yüksəldilməsi məqsədilə zəruri işlər görülməkdədir.

Ceyhun Cəlilov qeyd edib ki, 44 günlük Vətən müharibəsində qazandığımız parlaq qələbənin səbəb olduğu reallıqlardan biri də Zəngəzur dəhlizinin açılması üçün işlərə başlanılmasıdır. Ölkəmiz və bütün region üçün mühüm əhəmiyyət kəsb edən bu yolun açılmasında hər bir qəhrəman şəhid və qazimizin əvəzolunmaz rolu var. Xalqımız onların qəhrəmanlıqlarını heç vaxt unutmayacaq, nəsillərə örnək vətənpərvərliklərini və fədakarlıqlarını daim xatırlayacaq, xatirələrini ehtiramla yad edəcək. Bu məqsədlə muxtar respublikada işlər davam etdirilir. Muxtar respublikanın rayonlarında memorial abidə komplekslərinin inşası davam etdiriləcək.

Səlahiyyətli nümayəndə ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması uğrunda gedən döyüşlərdə şəhid olanlara Allahdan rəhmət, şəhid ailələrinə səbir diləyib, qazilərimizə cansağlığı, uzun ömür arzulayıb.



Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifələrini icra edən Fərid Bağırzadə çıxış edərək Naxçıvanda şəhid ailələrinə və qazilərə göstərilən qayğıdan bəhs edib, bu sahədə görüləcək işlər barədə məlumat verib. Qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların, şəhid ailələrinin və müharibə veteranlarının təminatına dəstək məqsədilə yaradılmış “Dəstək” Fondu tərəfindən 2023-2025-ci illər ərzində 1124 halda 1 milyon 800 min 467 manatdan çox vəsait xərclənib.

“Naxçıvan Şəhid Ailələri” İctimai Birliyi sədrinin müavini, şəhid gizir Bağır Ələkbərovun atası Əsəd Ələkbərov və “Naxçıvan Qaziləri” İctimai Birliyinin sədri Təbriz Zeynalov şəhid ailələri və müharibə iştirakçılarının sosial problemlərinin həlli, həmçinin şəhidlərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə görüləcək işlərdən ibarət təkliflərlə çıxış ediblər.

Görüşdə iştirak edən şəhid ailələri üzvləri – şəhid polkovnik-leytenant Sədi Musayevin anası Nəsibə Musayeva, şəhid mayor Vüsal Vəliyevin anası Mədinə Vəliyeva, şəhid kapitan Fərid Mehbalının atası Kamaləddin Mehbalıyev, şəhid baş leytenant Raqib Hüseynovun anası Rəna Hüseynova, şəhid baş leytenant Nihat Quluzadənin atası Qasım Quliyev, şəhid leytenant Fərmin Əliyevin atası Fərman Əliyev, şəhid leytenant İbrahim Vəlizadənin atası Malik Vəliyev, şəhid əsgər Abbasəli Nəzərəliyevin həyat yoldaşı Mədinə Nəzərəliyeva və Vətən müharibəsi iştirakçıları – “Naxçıvan Qaziləri” İctimai Birliyi sədrinin müavini Firuz Məmmədov və Məhəmməd Əhmədov çıxış edərək səmimi görüşün təşkilinə görə təşəkkür edib, problem və təkliflərini diqqətə çatdırıblar. Çıxış edənlər şəhid adına verilən yüksək dəyərə, həyata keçirilən sosial dəstək tədbirlərinə və yüksək qayğıya görə dövlətimizə minnətdarlıqlarını ifadə ediblər.

# Naxçıvanda sahibkarlarla görüş keçirilib




Dekabrın 11-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilovun iştirakı ilə muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüş keçirilib.

Əvvəlcə muxtar respublikada sahibkarlığın inkişafı məqsədilə həyata keçirilən tədbirlərlə bağlı təqdimat olub. Təqdimatda dövlət dəstəyi və güzəşt paketləri mexanizmləri barədə məlumat verilib.

Görüşdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov bildirib ki, dövlət başçısı cənab İlham Əliyevin diqqət və qayğısı ilə Naxçıvanda dayanıqlı iqtisadi inkişafın təmin edilməsində mühüm layihələrin icrasına başlanılır. 2026-cı ildən etibarən 10 il müddətində Naxçıvanda fəaliyyət göstərən sahibkarlar üçün yeni vergi, gömrük və sosial güzəştlər tətbiq olunacaq. Bu imtiyazlar muxtar respublikada sahibkarlar üçün əlavə üstünlüklər yaradacaq, yeni iş yerlərinin yaradılmasına, istehsal və ixrac imkanlarının genişlənməsinə mühüm töhfə verəcək.



2025-ci ilin 11 aylıq makroiqtisadi göstəricilərini təhlil edən səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, ÜDM istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz artıb. Qeyd olunan dövrdə istehsal olunan sənaye məhsulunun həcmi 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 14,1 faizdən çox olub.

Ceyhun Cəlilov Zəngəzur dəhlizinin artıq reallığa çevrildiyini, dəmir yolu infrastrukturunun qurulmağa başlanıldığını vurğulayaraq bildirib ki, bu da turizmin və digər sahələrin canlanmasına şərait yaradacaq, nəticədə, iş adamları investisiya qoyuluşu üçün yeni imkanlar əldə edəcəklər. Səlahiyyətli nümayəndə muxtar respublikada Dövlət proqramlarının və digər layihələrin icrası çərçivəsində görülən işlərdən danışıb, sahibkarlara fəaliyyətlərində uğurlar arzulayıb.

Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası İdarə Heyətinin sədri Vüqar Abbasov çıxış edərək sahibkarlıq sahəsində mövcud problemlər, qarşıda duran vəzifələr və gözlənilən nəticələrdən danışıb.

Görüşdə sahibkarların təklifləri dinlənilib, problemlərin həlli istiqamətində görüləcək işlər müzakirə edilib.



# Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb



Dekabrın 12-də Naxçıvanda müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ümummilli Lider Heydər Əliyevin xatirəsi anılıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, dövlət və hökumət nümayəndələri, Ali Məclisin deputatları Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında əzəmətlə ucalan abidəsini ziyarət ediblər.

Abidə önünə güllər qoyulub, Ümummilli Liderin xatirəsi dərin ehtiramla yad edilib.

# Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin xatirəsinə ağacəkmə aksiyası keçirilib



Dekabrın 12-də Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Babək rayonu ərazisində ayrılmış 1 hektarlıq sahədə keçirilən aksiyada Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, dövlət və hökumət nümayəndələri, eləcə də ekokönüllülər iştirak ediblər.

Aksiya çərçivəsində ərazidə quraqlığadavamlı və yerli iqlim şəraitinə uyğun 1800 üzüm tənəyi əkilib. Yeni salınan yaşıllıq sahəsində damcı suvarma sistemi qurulub.

Həmçinin bu gün keçirilən aksiya çərçivəsində Uzunoba su anbarı ətrafındakı badam bağında 600 yeni ting əkilib.



# Naxçıvanda “Yaşıl Enerji Zonaları: konseptual yanaşmalar, ilkin nəticələr və çağırışlar” mövzusunda tədbir keçirilib






Dekabrın 8-də Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Azərbaycan İnnovasiyalar Mərkəzində “Yaşıl Enerji Zonaları: konseptual yanaşmalar, ilkin nəticələr və çağırışlar” mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli “Yaşıl Enerji Zonaları” mövzusunun Azərbaycanın uzunmüddətli inkişaf gündəliyində xüsusi yer tutduğunu diqqətə çatdıraraq vurğulayıb ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində görülən işlər bu istiqamətdə yeni mərhələ açır. Dövlət Proqramında bərpa olunan enerji mənbələrinin inkişafı və “Yaşıl Enerji Zonası”nın yaradılması regionun strateji inkişaf istiqamətlərindən biri kimi müəyyən edilib. Proqramda Naxçıvanın günəş və külək enerjisi potensialından səmərəli istifadənin genişləndirilməsi, enerji istehsalında bərpa olunan mənbələrin payının artırılması, enerji təminatının dayanıqlılığının və müstəqilliyinin gücləndirilməsi əsas məqsədlər sırasında yer alır. Eyni zamanda Dövlət Proqramında “yaşıl enerji” layihələrinin regionun sənaye, kənd təsərrüfatı, nəqliyyat və sosial infrastrukturunun inkişafı ilə uzlaşdırılması, eləcə də ekoloji tarazlığın qorunması prioritet vəzifə kimi ortaya qoyulub ki, bu da Naxçıvanın uzunmüddətli və inklüziv inkişaf modelinin formalaşmasına xidmət edir.

Səlahiyyətli nümayəndənin müavini bu istiqamətdə atılan bir sıra mühüm addımlardan bəhs edərək qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında irimiqyaslı bərpa olunan enerji layihələrinin həyata keçirilməsi məqsədilə dünyanın aparıcı “yaşıl enerji” sahəsində fəaliyyət göstərən şirkətlər ilə tərəfdaşlıq müqavilələri bağlanılıb. Həmçinin Energetika Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikasında “Yaşıl Enerji Zonası” Konsepsiyası hazırlanaraq baxılması üçün Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinə təqdim edilib. Ümumilikdə, konsepsiya əhatəlidir və 4 əsas sahə üzrə 12 prioritet istiqamət müəyyən edilib. Bu isə muxtar respublikanın ölkənin ilk tam “yaşıl enerji” modeli kimi formalaşdırılması istiqamətində ardıcıl və sistemli yanaşmanın mövcud olduğunu bir daha təsdiqləyir.

Samir Seyidəhmədli 2026-cı ildən etibarən Naxçıvan Muxtar Respublikasında 10 il müddətinə tətbiqi nəzərdə tutulan vergi, sosial sığorta və gömrük rüsumlarına dair güzəşt paketinin, ilk növbədə, istehsalyönümlü layihələri stimullaşdırmağı hədəfləyən strateji addım olduğunu diqqətə çatdırıb. Bildirib ki, bu güzəştlər “yaşıl enerji” ilə yanaşı, sənaye, aqrar emal, texnoloji istehsal və ixracyönümlü məhsullar üzrə investisiya layihələrinin genişlənməsi üçün güclü iqtisadi baza formalaşdıracaq. Görülən işlərin və qarşıdakı layihələrin Naxçıvanı Azərbaycanın “yaşıl enerji” bölgəsinə, proqnozlaşdırıla bilən və rəqabətqabiliyyətli istehsal xəritəsinin mərkəzinə çevirəcəyinə, ölkəmizin dayanıqlı və innovativ inkişafına mühüm töhfə verəcəyinə əminliyini bildirən səlahiyyətli nümayəndənin müavini tədbirin təşkilində əməyi olan hər kəsə təşəkkür edib.

Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev çıxış edərək ölkəmizdə müəyyənləşdirilən enerji strategiyasının hədəfində 2030-cu ilədək bərpa olunan enerji mənbələrinin payının qoyuluş gücünü 30 faizə çatdırmaq olduğunu bildirib. Qeyd edib ki, strategiyanın tərkib hissəsi olaraq Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvan Muxtar Respublikasında da “Yaşıl Enerji Zonası”nın yaradılması, bərpa olunan enerji mənbələrindən daha səmərəli istifadə olunması, istehsal edilən enerjinin ixrac olunması istiqamətində mühüm addımlar atılacaq.

Naxçıvanın çox böyük günəş enerjisi potensialı olduğunu vurğulayan Cavid Abdullayev qeyd edib ki, Naxçıvanda bərpa olunan enerjiyə dair ərazilər aidiyyəti üzrə müəyyən olunub və torpaqayırma prosesləri gedir. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 688 hektar torpaq sahəsi Naxçıvanda bərpa olunan enerji mənbələri ərazisi kimi müəyyən olunub və gələn il, ümumilikdə, 50 meqavat gücündə iki stansiyanın inşası nəzərdə tutulur.

Sonra Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin nümayəndəsi Emil Kərimzadə “Naxçıvan Muxtar Respublikasının Yaşıl Enerji Zonası Konsepsiyası” mövzusunda məruzə edib, Naxçıvanın “Yaşıl Enerji Zonası”na çevrilməsi, muxtar respublikada yeni elektrik stansiyalarının inşası və enerji ixracı layihələrinin icrası ilə bağlı görüləcək işləri diqqətə çatdırıb.

Tədbirin davamında “Yaşıl Enerji Zonası Konsepsiyası Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı kontekstində” və “İnfrastruktur layihələr “Yaşıl Enerji Zonası”nın tərkib hissəsi kimi” iki panel müzakirəsi aparılıb.

Tədbir “Yaşıl Enerji Zonası və regional enerji dəhlizləri” və “Yaşıl enerji sahəsində investisiya layihələri” mövzularında panel müzakirələri ilə öz işini davam etdirib.



# 2026-cı ilin dövlət büdcəsi Milli Məclisdə qəbul edilib

Dekabrın 9-da keçirilən Milli Məclisin növbəti plenar iclasının gündəliyinə 16 məsələ daxil edilib.

İclasda “Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun layihəsi üçüncü oxunuşda müzakirə edilərək qəbul edilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev və Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov da plenar iclasda iştirak ediblər.



# Ümummilli Liderin əziz xatirəsi muxtar respublikanın rayonlarında böyük ehtiramla yad edilib



Dekabrın 12-də Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi Naxçıvan Muxtar Respublikasının bütün rayonlarında anılıb. İcra hakimiyyətlərinin, idarə və təşkilatların kollektivləri, ictimaiyyət nümayəndələri, sakinlər Ulu Öndərin rayon mərkəzlərindəki abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, dahi şəxsiyyətin xatirəsinə hörmət və ehtiramlarını göstəriblər.

Ümummilli Liderimiz Heydər Əliyev tarixdə dünya siyasətçilərinin qibtə etdiyi və irsinin araşdırılaraq öyrənildiyi siyasi lider kimi tanınıb. Dahi şəxsiyyət respublikamıza rəhbərlik etdiyi illər ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından uğurla çıxarıb, böyük inkişaf salnaməsi yaradıb. Ulu Öndərin ideyaları, amalları bu gün də Azərbaycanın yoluna işıq saçır, xalqımızı xoşbəxt gələcəyə aparır. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın Ulu Öndərimiz tərəfindən müəyyənləşdirilən sosial-iqtisadi inkişaf xəttini hazırda Prezident İlham Əliyev uğurla davam etdirir. Bu siyasi kurs Azərbaycan Prezidenti tərəfindən daha da zənginləşdirilərək XXI əsrin mükəmməl dövlətçilik fəlsəfəsinə çevrilib, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasına yol açıb.

Ümummilli Liderin ideyalarının işığında bütün sahələr üzrə Cənubi Qafqazın lider ölkəsinə çevrilən Azərbaycan 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarını 2020-ci il sentyabrın 27-dən etibarən 44 gün ərzində azad etdi. “Zəfər Günü” kimi tariximizə əbədi həkk olunan noyabrın 8-də Qarabağın gözü Şuşa şəhərinin işğaldan azad olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin müqəddəs arzularını gerçəkləşdirdi, ata vəsiyyətini yerinə yetirdi. 2023-cü il 19-20 sentyabr tarixlərdə müzəffər Ordumuzun lokal xarakterli antiterror tədbirləri ilə ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam təmin olundu.

Tarixi zəfərdən ötən dövrdə Azərbaycan dövləti işğaldan azad olunan torpaqlarımıza Böyük Qayıdış siyasətini uğurla həyata keçirir, Qarabağın hər qarışına həyat qayıdır, soydaşlarımız öz yurdlarına geri dönür, təhsil, səhiyyə, mədəniyyət sahələri dirçəldilir, xalqımızın ən qiymətli sərvətləri olan milli-mənəvi dəyərlərimiz, tarixi abidələrimiz bərpa olunur. Zəfərimiz dünyanın aparıcı dövlətləri, beynəlxalq ictimaiyyət tərəfindən rəğbət qazanıb, xalqımız qətiyyətli liderin rəhbərliyi ilə sübut edib ki, o öz torpağına bağlıdır, sözünə, əməlinə sadiqdir, iradəlidir, güclüdür. Zəfərin 5 illiyində – bu il avqustun 8-də Prezident İlham Əliyev Vaşinqtonda əldə olunan tarixi razılaşmalarla müharibə meydanında olduğu kimi, sülh masasından da qalibiyyətlə ayrılıb. Ulu Öndər ideyalarının yaşadıcısı, qətiyyətli liderin rəhbərliyi ilə artıq Cənubi Qafqazda ədalətli, davamlı sülh və əməkdaşlıq mühiti formalaşmaqdadır.

Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu siyasi yola sonsuz sədaqət göstərən Prezident İlham Əliyev Naxçıvanın sosial-iqtisadi inkişafı, təhlükəsizliyinin təmin olunması istiqamətində də mühüm qərarlar verir, sərəncam və fərmanlar imzalayır. Əminliklə demək olar ki, dövlət başçısının apardığı uğurlu xarici siyasət nəticəsində Zəngəzur dəhlizinin açılması, eləcə də “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası muxtar respublikanın müasir inkişafında yeni mərhələnin əsasını qoyacaq.



# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 4 saylı Yengicə seçki dairəsindən olan deputat Abbasov Əli Feyzulla oğlu barəsində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə daxil olmuş vətəndaş müraciətləri əsasında Ali Məclisin İntizam Komissiyası tərəfindən intizam icraatı başlanılmışdır.

Qanunvericiliyin tələblərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam Komissiyasının hazırladığı rəy Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən 11 dekabr 2025-ci il tarixdə Əli Abbasovun deputat mandatından məhrum edilməsi haqqında qərar qəbul olunmuşdur.

## Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbirlər keçirilib



"Konstitusiya və Suverenlik İli" çərçivəsində dekabrın 11-də Naxçıvan Şəhər İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Naxçıvan şəhərinin baş meydanında ucaldılmış Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə tər güllər düzüb, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər. Daha sonra iştirakçılar Heydər Əliyev Muzeyini ziyarət edərək Ümummilli Liderin zəngin dövlətçilik irsi, həyat və fəaliyyəti barədə geniş məlumat əldə ediblər.

Tədbirin əvvəlində Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Daha sonra tədbir Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli, Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Gülxanım Orucova və Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyevin çıxışları ilə davam edib.

Çıxışlarda vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycanın memarı və qurucusudur. Onun əsasını qoyduğu dövlətçilik strategiyası Azərbaycanı böyük inkişaf yoluna çıxarıb, ölkəmizin bugünkü siyasi, iqtisadi və sosial uğurlarının təməlini formalaşdırıb. Natiqlər Heydər Əliyevin milli dövlətçilik ənənələrinin bərpası, xalqın birliyi, ölkənin müstəqilliyinin qorunması və möhkəmləndirilməsi istiqamətində gördüyü misilsiz işlərdən bəhs ediblər.

Tədbirdə, həmçinin qeyd olunub ki, Ulu Öndərin siyasi xəttini bu gün ölkə Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artması, regional və qlobal miqyasda aparıcı mövqeyə yüksəlməsi məhz Ulu Öndər Heydər Əliyev irsinin müasir mərhələdə təntənəsidir.

Sonda Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, yeni nəsillərə çatdırılması və dövlətçilik ideyalarının yaşadılması istiqamətində həyata keçirilən tədbirlərin davam etdiriləcəyini bildirən çıxışlar səsləndirilib.

Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı ilə birgə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə, zəngin dövlətçilik irsinə həsr olunmuş "Heydər Əliyev yolu: tarixi və gələcəyi birləşdirən irs" adlı tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir vəzifəsini icra edən Azər Məmmədrəhimov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəaliyyətinin Azərbaycan tarixində müstəsna rol oynadığını vurğulayıb. O bildirib ki, Ulu Öndərin müəyyən etdiyi inkişaf strategiyası yalnız keçmişdə deyil, bu gün də ölkəmizin siyasi, sosial və iqtisadi yüksəlişinin əsasını təşkil edir və Azərbaycanın müasir dövlət kimi möhkəmlənməsində həlledici əhəmiyyət kəsb edir.

Nazir müavini çıxışında Heydər Əliyev irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılmasının hər bir dövlət qurumu üçün prioritet vəzifə olduğunu vurğulayıb. O bildirib ki, bu irs ölkəmizin sabitliyini qorumaq, milli-mənəvi dəyərləri gücləndirmək və Azərbaycan gəncliyini müasir bilik və bacarıqlarla yetişdirmək baxımından böyük əhəmiyyət kəsb edir. Eyni zamanda Heydər Əliyev siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi və muxtar respublikada həyata keçirilən layihələrdə də öz əksini tapdığı diqqətə çatdırılıb.



Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli çıxışında Ümummilli Lider Heydər Əliyevin ideyalarının bu gün də ölkəmizin sosial-iqtisadi və siyasi inkişafına yön verən mühüm xətt olduğunu vurğulayıb. O bildirib ki, Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kurs dövlətçiliyimizin möhkəmlənməsində həlledici rol oynayıb və bu yol Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşı, YAP ərazi partiya təşkilatının sədri Sahil Quliyev çıxışında Heydər Əliyevin Azərbaycan gəncliyinə verdiyi dəyərdən və onların gələcəyin hərəkətverici qüvvəsi kimi formalaşdırılmasında rolundan danışıb.

Sonda Ulu Öndərin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.

# Naxçıvan Dövlət Arxivi elmi-tədqiqat mənbəyidir




***Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi Naxçıvan Muxtar Respublikasının tarixini özündə əks etdirən sənədlər xəzinəsidir. Yarandığı gündən, 13 dekabr 1925-ci ildə üzərinə düşən vəzifəni layiqincə yerinə yetirərək Dövlət Arxivi fond sənədlərindən istifadə olunması işini günün tələblərinə uyğun olaraq təşkil edir.***

***Naxçıvan Dövlət Arxivi Naxçıvanın tarixi, Naxçıvan xanları, onların şəcərəsi və sair sənədlərlə zəngindir. Düzdür, arxivin təşkil olunması 100 illik tarixi özündə əks etdirsə də, arxivdə mühafizə olunan sənədlər 200 ilə yaxın 3 əsri – XIX-XX-XXI əsrləri əhatə edir. Keçən əsrin ikinci yarısından başlayaraq Naxçıvan tarixi ilə bağlı araşdırmalar aparmaq məqsədilə tədqiqatçılar Naxçıvan MSSR Dövlət Arxivinə müraciət edirdilər. Dövrün tələbinə uyğun olaraq Naxçıvan MSSR-nin yaranması, Naxçıvanda xalq maarifinin inkişafı, savadsızlığın ləğvi, sovet quruculuğu, sosializmin qələbəsi, kollektivləşmə, sovet hakimiyyəti uğrunda mübarizə, partiya quruculuğu və sair məsələlər Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində tədqiqat mənbəyi olmuşdur. Tarix elmləri namizədi Əli Əliyev, tarix elmləri doktoru Şükür Sadiqov, İbrahim Bağırov, Qasım Qasımov, İbrahim Hüseynov kimi tədqiqatçılar Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin materiallarından bəhrələnərək elmi əsərlər yazmışlar.***






Müstəqillik illərində arxiv fondlarından məxfilik götürülmüş və arxivlərdən geniş istifadə olunmuşdur. Artıq Naxçıvan tarixinin Naxçıvan Dövlət Arxivində mühafizə olunan xüsusi qiymətli sənədləri tədqiqat mənbəyinə çevrilmişdir. Naxçıvan xanlığı, Kəngərlilər, Şahtaxtinskilər, Naxçıvan qəza polisi, qəza məktəbləri tədqiq olunmağa başlanmışdır. Naxçıvan xanlığı, Naxçıvanskilərin hərb tarixində misilsiz xidmətləri, hərb tarixinə bəxş etdiyi generallar, xüsusən Hüseyn xan Naxçıvanski diqqəti cəlb edən məsələlər idi. Tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin Naxçıvan xanları ilə bağlı apardığı araşdırmalar xüsusi yer tutur.

Azərbaycanlıların Qərbi Azərbaycandan, öz doğma yurd yerlərindən köçürülməsi – deportasiya olunması, Naxçıvan MSSR-də yaşayan vətəndaşların bir çoxunun repressiya olunması, islah əmək düşərgələrinə sürgünə göndərilməsi ilə bağlı tədqiqatları da xüsusi qeyd etmək lazımdır. Tarix üzrə fəlsəfə doktoru Şamxal Məmmədovun "Rusiyanın Cənubi Qafqaz siyasətində erməni amili və onların qonşu xalqlarla münasibəti", Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Qafqaz xalqları kafedrasının doktorantı Mirvari Qurbanovanın "1988-1990-cı illərdə Ermənistan SSRİ-nin yerli azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti", Nadir Hüseynlinin "Naxçıvanda repressiya" mövzuları ilə bağlı Dövlət Arxivində apardığı tədqiqatlar xüsusi yer tutur.

Naxçıvan Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Xəzər Hüseynov Naxçıvanda kənd təsərrüfatının inkişafı ilə bağlı, AMEA Naxçıvan Bölməsinin əməkdaşlarından tarix üzrə fəlsəfə doktorları – Toğrul Xəlilov "Naxçıvanın maarif və mədəniyyət tarixinə dair", Yaşar Rəhimov "Naxçıvan kollektivləşmə illərində (1920-1930-cu illər)", Sara Hacıyeva "XVIII-XIX əsrlərdə Naxçıvanın təsərrüfat həyatı", İlhami Əliyev "XVIII-XIX əsrin birinci yarısında Rusiya, İran və Osmanlı dövlətlərinin siyasətində Naxçıvan", Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı Sevil Yusifova "Şərq qapısı" qəzetində "XX əsrdə azərbaycanlıların məişəti", AMEA Mərkəzi Elmi Kitabxanasının direktor müavini Şəhla Quliyeva "Naxçıvan Muxtar Respublikasında dövri mətbuat", tarix üzrə fəlsəfə doktoru Qadir Əkbərov "1920-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasının mədəniyyəti", pedaqogika üzrə fəlsəfə doktoru Vahid Rzayev "Naxçıvanda məktəb və pedaqoji fikrin inkişafı (XIX-XX əsrlər)", tarix elmləri doktoru Həmzə Cəfərov "Naxçıvanda təhsil: inkişaf yolu və imkanları", tibb elmləri namizədi Tofiq Cəfərov Naxçıvan səhiyyəsinin inkişaf tarixindən", tarix üzrə fəlsəfə doktoru Vaqif Məmmədov "Naxçıvan ikiillik Müəllimlər İnstitutu tarixindən" mövzuları ilə bağlı Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivində dövlət fond sənədlərindən elmi-tədqiqat məqsədilə geniş istifadə etmişlər. Təkcə Azərbaycan vətəndaşları yox, Azərbaycanın hüdudlarından kənarda yaşayan tədqiqatçılar da araşdırmalar aparmaq üçün Naxçıvan Dövlət Arxivinə müraciət etmişlər.

2016-cı ildə Ümumdünya Genoloji Mərkəzin əməkdaşları, jurnalist Plodin Darya Timofeyevna, tarixçi, arxivçi Rempel Pyotr Borisoviç Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində ezamiyyətdə olmuş, arxiv fond sənədlərindən istifadə etməklə Moskvada yaşayan övladlarının xahişi ilə Şahbuz rayonunda yaşamış və işləmiş Quliyev Yusif Mikayıl oğlu ilə bağlı araşdırmalar apararaq maraqlı məlumatlar toplamışdır. Həmçinin Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində mühafizə olunan kameral siyahılarla bağlı müraciətlər də daxil olur.

2025-ci ildə Naxçıvan Texniki Kollecinin yaradılmasının 100, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin yaranmasının 105 illiyi, hüquq-mühafizə orqanlarının yaranması və fəaliyyəti, Yusif Məmmədəliyevin Ordubad şəhərində ev-muzeyinin açılması və digər məsələlərlə bağlı həmin təşkilatların əməkdaşları tərəfindən fond sənədləri üzərində tədqiqatlar aparılmışdır.

Naxçıvan Dövlət Arxivində hələ də öz tədqiqatını gözləyən külli miqdarda mövzular vardır. Bu mövzularla bağlı tədqiqat aparmaq üçün Dövlət Arxivinə müraciət edən tədqiqatçılara daim arxivlərlə işləməyə, yeni-yeni araşdırmaların üzə çıxmasında uğurlar arzulayırıq.

**Zülfiyə İSMAYILOVA**
***Naxçıvan Dövlət Arxivinin şöbə müdiri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi***

# Heydərabad qəsəbəsinin
## Azərbaycan tarixində çox mühüm yeri vardır




*Adına layiq məğrurluqla düşmənin qarşısında dayanan Vətən torpağı*

Qədim Oğuz elində bir yurd var, qeyrətin, igidliyin dastanının yazıldığı bir yurd. Həmin yurd ki adının sahibinin şəninə layiq inkişaf edir, gözəlləşir. Oranın sakinləri düşmənin beş addımlığında yaşasalar da, bir an belə qorxu hissi keçirmir. Sədərəyi dövrəyə alan dağlar onların zirvələrində dayanan oğulların sayəsində yarılmaz bir səddir. Sədərək rayonunun mərkəzi olan Heydərabad qəsəbəsi illər əvvəl hələ sovetlər dönəmində dahi rəhbərin istəyi ilə salınmış, Sədərəyin Ermənistanla sərhədinə lap yaxın yerdə mənzillər inşa edilmiş və sakinlərin burada məskunlaşmasına şərait yaradılmışdır. Uzaqgörən rəhbərin adını daşıyan qəsəbə 90-cı illərin əvvəllərində mənfur düşmənin hücumları zamanı tamamilə dağıdılmış, amma insanlar öz mətanətini qorumuş və düşmənin hücumlarının qarşısı alınmışdır. Həmin günlərdə insanların bir çoxunun evinə mərmilər düşüb əzizlərini qanına qəltan etsə də, səngərdə döyüşənlərin cəsarəti qırılmadı. Sədərək qorundu qədim yurdun hər tərəfindən gələn oğulların canları bahasına. Həmin günlər qədim yurdun hər kəndindən, şəhərindən oğullar axışdı Sədərəyə, bu torpağı müdafiə etdilər, can qurban verdilər Vətən dediyimiz bir ovuc torpağa. Kimisi canından, kimisi sağlamlığından keçdi, amma bir ovuc torpaqdan keçmədik. “Vətəndən pay olmaz”, – dedik. Dahi rəhbərin qayıdışı insanlara güc verdi. Ulu Öndər Heydər Əliyevin Onu canı qədər sevən, Ona özü kimi inanan insanların qarşısında ***“Mən doğma torpağıma, Naxçıvana, Naxçıvan Muxtar Respublikasına hədsiz məhəbbətimi bir daha bildirmək istəyirəm. Bilin ki, mən sizə həmişə sadiq olmuşam, bundan sonra da sadiq olacağam. Mən Azərbaycan xalqına həyatım boyu sadiq olmuşam, ömrümün son dəqiqəsinə qədər də sadiq olacağam. Azərbaycan dövlətinin müstəqilliyi yolunda bundan sonra da fədakarcasına çalışmaq mənim həyatımın mənasıdır”***, – deməsi onlarda qələbə, inam əzmini gücləndirdi. Sədərək döyüşlərində bütün Naxçıvan diyarının qeyrətli, igid oğulları mərdliklə vuruşurdular və qalib gəldilər. Dahi rəhbərin gəlişi səngərdəki əsgərə də, evindən didərgin düşən Sədərək camaatına da güc və ümid verirdi. Onun Sədərəkdə döyüş mövqelərindəki oğullarla və “Dəhnə” adlandırılan ərazidə çadırlarda yaşayan sakinlərlə görüşü hələ də yaddaşlardadır, indi də qürurla xatırlanır.

İndi həmin günlərdən bir qərinədən artıq vaxt ötür. Bu gün müasir görünüşü ilə düşmənə gözdağı olan Heydərabadda olan hər bir insan həmin çətin vaxtları düşündükcə qürur hissi keçirir. Ötən illər ərzində rayon mərkəzi Heydərabad qəsəbəsində yeni binalar tikilib, küçələr salınıb, yaşıllıq zolaqları yaradılıb. İndi qəsəbəyə xüsusi gözəllik və yaraşıq verən həmin obyektləri saymaqla qurtarmaq olmaz: Heydər parkı, Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyi, şahmat məktəbi, qəsəbə tam orta məktəbi, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının inzibati binası, Sədərək Rayon Məhkəməsi, prokurorluq, Polis Şöbəsi üçün inzibati binalar və sair. Heydərabad qəsəbəsində inşa olunan yeni yaşayış binası Ermənistanla sərhəddən cəmi bir kilometr məsafədə yerləşir. Zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olan binada 48 mənzil sədərəklilərin istifadəsinə verilib. Bayraq Meydanının, Teleötürücünün istifadəyə verilməsi yeni su-kanalizasiya sisteminin çəkilişi də dövlət qayğısının daha bir nümunəsidir. Mənfur düşmənlə cəmi bir neçə yüz metr məsafədə yerləşən bu qəsəbədə bir-birindən yaraşıqlı inzibati və yaşayış binaları, istirahət parkı göz oxşayır. Buradakı bütün yollar öz rahatlığı ilə seçilir. Qəsəbədaxili yollara asfalt döşənib, işıqlandırma sistemi quraşdırılıb. Ətrafda yaradılmış yaşıllıq zolaqları və gülkarlıqlar bu gözəlliyi daha da artırır. Səliqə-sahman və sakitlik isə buranın daimi həyat tərzinə çevrilib. Bütün mənzillərin pəncərəsindən düşmən postlarının göründüyü bu qəsəbədə həyat normal tərzdə davam edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2010-cu il oktyabrın 5-də muxtar respublikaya səfəri çərçivəsində Sədərək rayonunun Heydərabad qəsəbəsinə gəlib, burada istifadəyə verilən yeni obyektlərin açılış mərasimində iştirak edib. Ölkə başçısı qəsəbə sakinləri qarşısında çıxış edərək deyib: ***“Heydərabad qəsəbəsinin Azərbaycan tarixində çox mühüm yeri vardır. Siz düşmənlə üz-üzəsiniz, sərhəddəsiniz və vaxtilə buralar dağıdılmışdı. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və işğalçı siyasəti bu bölgələri də əhatə etmişdir. Məhz Ulu Öndər Heydər Əliyevin fəaliyyəti və qətiyyəti, müdrikliyi nəticəsində Naxçıvan özünü qoruya bilmişdir... Əgər o vaxt Heydər Əliyev Naxçıvana gəlməsəydi və burada bütün işləri lazımı səviyyədə görməsəydi, Naxçıvanın aqibəti çox acınacaqlı ola bilərdi. Biz qədim torpağımızı itirə bilərdik”.***

Bu gün müasir görkəmdə olan bu qəsəbədə 90-cı illərdə evlər düşmənin ağır silahlardan atdığı mərmilərlə tamamilə dağılmışdı. Dövlətimizin qayğısı ilə həmin xarabaya dönmüş evlərin yerində yeni evlər inşa olundu sahiblərinə verildi. Bu gün hər bir sakin öz evində çırağını yandırır, əkirbiçir, rahat yaşayır.

Əsası 1982-ci ildə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan Heydərabad 23 mart 2000-ci ildə qəsəbə statusu alıb. Heydərabad qəsəbəsi özünəməxsus gözəlliyi ilə düşmənə gözdağı, bizə isə qürur yaşadır. O, adına layiq məğrurluqla dayanıb düşmənin qarşısında. Necə ki belə qəlbi dağlardan da böyük insanlarımız var, bu Vətən daim var, qürur yerimizə çevrilən yurd yerlərimizin gələcəyi daha da firavan və işıqlı olacaq.

**“Şərq qapısı”**



# Naxçıvan Təlim Mərkəzi dövlət orqanları əməkdaşlarına sertifikatlar təqdim edib



Dekabrın 10-da Naxçıvan Dövlət Texniki Kollecinin akt zalında Naxçıvan Təlim Mərkəzinin təşkilatçılığı ilə keçirilən təlimlərin sertifikat təqdimetmə mərasimi baş tutub. Tədbirdə "Dövlət qurumları üçün SMM", "Dövlət satınalmaları və tətbiqi", "İnsan resurslarının idarə olunması", "Rəhbərlər üçün inkişaf proqramı" və "Ofis proqramları" üzrə təlimləri uğurla tamamlayan iştirakçılar mükafatlandırılıb.

Naxçıvan Təlim Mərkəzinin fəaliyyətindən bəhs edən videoçarxın nümayişindən sonra "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxsin İdarə Heyətinin sədri Bəhruz Nəzərov çıxış edərək bildirib ki, təlim mərkəzinin ilin əvvəlindən etibarən təşkil etdiyi təlimlərə dövlət orqanlarının 2000-dən artıq əməkdaşı, o cümlədən gənci qatılıb. Təlimlərin keçirilməsində NMR Nazirlər Kabinetinin və digər dövlət qurumlarının dəstəyini qeyd edən B.Nəzərov muxtar respublika rəhbərliyinin NTM-in fəaliyyətinin daha da genişləndirilməsinin prioritet vəzifələrdən biri kimi müəyyənləşdirdiyini vurğulayıb. O, gələn ildən təlimlərin istər təşkili, istər mövzu əhatəsi, istərsə də sertifikasiyanın meyarları ilə bağlı yeni yanaşmaların tətbiqi istiqamətində aparılan işlərin sayəsində NTM-in fəaliyyətində keyfiyyətcə yeni mərhələnin başlanacağını qeyd edərək dövlət orqanları əməkdaşlarını və gəncləri təlimlərdə fəal iştirak etməyə səsləyib.

Tədbirin sonunda təlimlərin 121 nəfər iştirakçısına sertifikatlar təqdim olunub.

# "Sədərək" gömrük postunun yaxınlığındakı TIR parkında əsaslı yenidənqurma işləri aparılıb



Türkiyə Respublikası ilə sərhəddə yerləşən Naxçıvan Baş Gömrük İdarəsinin "Sədərək" gömrük postunun yaxınlığındakı TIR parkında əsaslı yenidənqurma işləri aparılıb. TIR park nəqliyyat vasitələrinin dövlət sərhədindən keçidinin intensivliyinin artırılmasına, nəqliyyat axınının idarə olunmasına, sərhədkeçmə proseslərinin səmərəli təşkilinə xidmət edir.

"Sədərək" dövlət sərhədindən buraxılış məntəqəsi ölkəmizdən keçən dəhlizlərin önəmli komponentlərindən biridir və nəqliyyat vasitələrinin sürətli keçidini təmin etmək məqsədilə gələcəkdə məntəqədəki əməliyyatların bir hissəsinin TIR parkında aparılması planlaşdırılır.

7,34 hektar sahəni əhatə edən TIR parkının ərazisinə asfalt örtüyü çəkilib, xətləmə işləri aparılıb, yeni işıqlandırma dirəkləri quraşdırılıb. Su-kanalizasiya, elektrik xətləri, istilik və havalandırma sistemləri yenilənib. Proseslərin real vaxt rejimində izlənilməsi, təhlükəsizliyin gücləndirilməsi məqsədilə onlayn müşahidə sistemləri quraşdırılıb. Parka daxil olan sürücülərə nəqliyyat vasitələrindən enmədən onlayn növbə sistemi vasitəsilə qeydiyyatdan keçmək imkanı yaradılıb, həmçinin ixrac yüklərinin çəkisini müəyyənləşdirmək məqsədilə tərəzinin quraşdırılması nəzərdə tutulub. Ərazidə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə yanğın su anbarı tikilib. Gələcəkdə gömrük ödənişlərinin alınması üçün bank xidmətinin yaradılması da nəzərdə tutulur.

Yükə baxışın keçirilməsi məqsədilə yük platforması və ixrac yüklərinin qeydiyyatını aparmaq üçün xidməti otaqlar istifadəyə verilib. Xidməti binada əsaslı təmirdən sonra sürücülər üçün nəzərdə tutulan zəruri infrastruktur yararlı vəziyyətə gətirilib. Yenilənmiş TIR parkının istifadəyə verilməsi yük daşımalarının vaxtında icrası, nəqliyyat vasitələrinin gözləmə müddətinin azaldılması və xidmət keyfiyyətinin artırılması ilə yanaşı, ölkəmizin tranzit potensialının gücləndirilməsi, beynəlxalq yük daşımalarında rəqabət qabiliyyətinin yüksəldilməsi və logistika xidmətlərinin daha səmərəli təşkili baxımından da mühüm əhəmiyyət daşıyır.

# Naxçıvan məktəbliləri Dünya Robot Olimpiadasında 56 ölkə arasında finala yüksəlib

Sinqapurda keçirilən Dünya Robot Olimpiadasında (WRO) Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən STEAM Təlim-Tədris Mərkəzinin şagirdləri uğurlu nəticəyə imza atıb. Şagirdlərimiz 110 ölkənin 24000-dən çox komandası arasından seçilərək "Robosports" kateqoriyasında 56 ölkə arasında finala yüksəlib. Final mərhələsinin nəticəsində öz qruplarını lider olaraq tamamlayan məktəblilərimiz yekunda 6-cı yeri tutublar. Biz də komanda üzvləri Tayfun İmanlı, Amin Əlizadə və Murad Kərimovla qazandıqları uğurlar barədə həmsöhbət olduq.




Heydər Əliyev adına tam orta məktəbin 8-ci sinif şagirdi Amin Əlizadə deyir ki, məktəbdə təhsil aldığı müddətdə elmə, texnologiyaya və xüsusilə də robototexnikaya böyük maraq göstərib: "Bu marağım məni müxtəlif layihələr üzərində çalışmağa, yeniliklər öyrənməyə və beynəlxalq səviyyəli yarışlarda iştirak etməyə təşviq etdi. Bu il mən və komanda yoldaşlarım Azərbaycanı Dünya Robot Olimpiadasında (World Robot Olympiad – WRO) təmsil etmək şərəfinə nail olduq. Olimpiada dünya üzrə ən nüfuzlu robototexnika müsabiqələrindən biridir və bu yarışda 56 ölkədən minlərlə komanda iştirak edirdi. Gərgin hazırlıq prosesi, komanda işi və texniki biliklərimizin nəticəsi olaraq biz 56 ölkə arasında 6-cı yer qazanmağa müvəffəq olduq. Bu nailiyyət həm bizim üçün, həm də ölkəmiz üçün böyük qürurdur. Bu uğur göstərir ki, Azərbaycan gəncləri elm və texnologiya sahəsində yüksək potensiala malikdir və beynəlxalq arenada rəqabət apara bilirlər".

Müsahibimiz qeyd edir ki, bu yarış böyük təcrübə, yeni biliklər və gələcək hədəflərim üçün motivasiya oldu. Robototexnika sahəsində daha da inkişaf etməyi, ölkəmi beynəlxalq yarışlarda layiqincə təmsil etməyi və gələcəkdə mühəndislik sahəsində peşəkar olmağı qarşıma məqsəd qoymuşam.

Söhbətimizə qoşulan Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Murad Kərimov vurğulayır ki, STEAM mərkəzinə ilk dəfə 2023-cü ildə proqramlaşdırma kursuna başlayaraq qoşulub: "Bu sahəyə uşaqlıqdan böyük marağım var idi. İlk STEAM yarışım məktəblərarası yarış oldu və orada nəticə əldə etməsəm də, kurslara davam etməyə qərar verdim. Müəllimim Fuad Babayevin dəstəyi və istiqaməti sayəsində STEAM sahəsinə marağım daha da artdı. Nəticədə, Respublika Robot Olimpiadasında 1-ci yerə layiq görüldük və beləliklə, Sinqapurda keçirilən Dünya Robot Olimpiadasında Azərbaycanı təmsil etməyə vəsiqə qazandıq. Yarış 3 gün davam etdi. İlk gün hazırlıq mərhələsi idi. İkinci gün qrup oyunları keçirildi. Qrupumuzda 7 komanda vardı və biz 7 oyundan 6-sında qalib gələrək qrupda 1-ci yerin sahibi olduq".

Murad qeyd edir ki, bu onlar üçün böyük uğur idi: "Üçüncü gün final mərhələsi idi. İlk oyunumuz "Tayland" komandası ilə oldu. Onlar elektronika baxımından bizdən daha üstün idilər və bu səbəbdən onlara məğlub olduq. Buna baxmayaraq, biz gələcək yarışlarda daha yaxşı nəticələr qazanmaq üçün çalışmaqda davam edirik və edəcəyik".

Digər müsahibimiz isə Naxçıvan şəhər Hüseyn Cavid adına 5 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Tayfun İmanlıdır. Artıq bir neçə ildir, robototexnika sahəsində fəal olaraq çalışan Tayfun deyir ki, ilk böyük təcrübəm 2024-cü ildə WRO Azerbaijan finalında olub: "Həmin yarışda 3-cü yeri tutmağım mənə həm motivasiya, həm də mühüm dərslər verdi. Bir il ərzində qazandığım təcrübəni, apardığım araşdırmaları və komanda ilə etdiyimiz davamlı məşqləri növbəti WRO yarışında sınaqdan keçirdik. Bu dəfə isə əzmin bəhrəsini gördük və Azərbaycan finalında 1-ci yerə layiq görüldük. Artıq qarşımızda yeni bir hədəf vardı: ölkəmizi Sinqapurda keçiriləcək dünya finalında layiqincə təmsil etmək. Bu məqsədlə hazırlıqlara daha böyük həvəs və məsuliyyətlə başladıq. Robotumuz üzərində yeniliklər etdik, mexaniki hissələrdən tutmuş proqramlaşdırma məntiqinə qədər bir çox təkmilləşdirmələr apardıq. Sonda əvvəlki illə müqayisədə daha güclü, daha dəqiq və etibarlı bir robot ortaya çıxdı. Dünya finalında ilk gün test günüdür, bu mərhələdə robotu yeni mühitə uyğunlaşdırmaq və son düzəlişlər etmək olur. İkinci gün isə qruplar üzrə yarış baş tutur. Biz "E" qrupunda idik və burada Fələstin, İspaniya, Sinqapur, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Özbəkistan komandalarına qalib gələrək qrupdan 1-ci çıxmağı bacardıq. Ümumi nəticələrə əsasən dünya üzrə 6-cı yeri tutmağımız isə bizim üçün böyük uğur idi. Növbəti gün final oyunları başladı. Burada ilk rəqibimiz "Tayland" komandası oldu və təəssüf ki, 3 oyundan 2-də onlara məğlub olduq. Lakin bu nəticə bizi ruhdan salmadı, əksinə, daha da gücləndirdi".

Tayfun onu da vurğulayır ki, planları artıq indidən aydındır: "Gələn il daha güclü robot hazırlamaq, daha peşəkar strategiyalar qurmaq və daha yüksək nəticələr əldə etmək. Qarşıdan gələn yarışlarda həm öz bacarığımızı, həm də Azərbaycanı daha uğurla təmsil etməyə qərarlıyıq. Bu yol bizim üçün, sadəcə, yarış deyil, öyrənmək, inkişaf etmək və bacardığımızı göstərmək fürsətidir. Ümid edirik ki, gələn il daha böyük uğurlara imza atacaq, dünya finalında daha yüksək yerlərə iddialı olacağıq".

Biz də məktəblilərimizə uğurlar arzulayırıq.

**"Şərq qapısı"**

# İtaliya mediasında Ordubad mətbəxi işıqlandırılıb



İtaliyanın tanınmış qastronomiya və səyahət platforması olan "Marino Enogastronomic Tour" Ordubad şəhərinin zəngin mətbəxindən bəhs edən geniş məqalə dərc edib. Bu material platforma ilə "Şərq qapısı" qəzeti arasında qurulan əməkdaşlıq çərçivəsində Naxçıvan haqqında beynəlxalq medialarda yayımlanan növbəti yazıdır.




Məqalədə Naxçıvan Muxtar Respublikasının qədim şəhəri olan Ordubadın tarixi-memarlıq siması, beş məhəlləli quruluşu və ənənəvi qida mədəniyyətinə ətraflı şəkildə təqdim olunur. İtaliya mediası xüsusilə Ordubadın məşhur şirniyyatı – "Ordubad sucuğu" haqqında geniş məlumat verərək onu "enerji dolu, çoxəsrlik ənənənin daşıyıcısı olan unikal dad" kimi xarakterizə edir.

"Marino Enogastronomic Tour" platforması Naxçıvanla bağlı mövzulara xüsusi maraq göstərir və mütəmadi olaraq regionun mədəniyyətinə, mətbəxinə və turizm potensialına dair yazılara yer verir. Bu da Naxçıvanın beynəlxalq auditoriyada daha geniş tanıdılmasına xidmət edir.

Yazının tam mətni burada yayımlanıb: *https://marinoenogastronomictour.altervista.org/17/06/marinoenogastronomictour/una-delizia-tradizionale-della-repubblica-autonoma-di-naxcivan/*

## *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəhbərliyi və Aparatın kollektivi deputat Mübariz Bayramova həyat yoldaşı **GÜLLÜBƏYİM SEYİDOVANIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## *İtmişdir*

Cəfərov Rauf Mehralı oğlunun adına 23 yanvar 2020-ci il tarixli, 271/01 nömrəli Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən verilmiş lisenziya itdiyindən etibarsız sayılır.

***

Ordubad şəhəri Vahabov Əkbər Rzaqulu oğlunun adına olan 874 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şəkərabad kənd sakini Cəlilov Əli Kazım oğlunun adına olan 103013005663 reyestr nömrəli, AA-002575 seriya nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Sirab kənd sakini Orucov Lətif Məmmədhüseyn oğlunun adına olan JN-23$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsi Əliyev Əli Ələkbər oğluna məxsus JN-1642 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kolanı kəndində Nəcəfov Cəbi Rza oğlunun adına olan 15 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Babayev Hüseyn Kazım oğluna məxsus JN-1258$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kənd sakini Əliyeva Məhbub Zəhmət qızının adına olan JN-231$^{A}$ nömrəli, 10101008 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Zeynəddin kəndində yaşamış Seyidov Səttar Qafar oğlunun adına olan JN-171$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qışlaqabbas kənd sakini Allahverdiyeva Şərəbanı Ələkbər qızına məxsus JN-776$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kəndində yaşamış Təhməzova Fatma Əli qızına məxsus JN-130$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kəndində yaşamış Abbasov Kamil Əmir oğluna məxsus JN-270 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çomaxtur kənd sakini Hüseynova Şərəbanı Hilal qızına məxsus 102013005512 nömrəli torpaq sahəsinin plan-ölçüsü və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kəndində yaşamış Bəşirzadə Məhərrəm Yusif oğluna məxsus JN-345 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Cəlilkənd sakini Əliyev Kərim Rəhim oğluna məxsus JN-183$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kəndində yaşamış İbrahimova Tərlan Əkbər qızının adına verilmiş JN-156$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu Aşağı Əndəmic kənd sakini Nəsirov Aslan Nemət oğlunun adına olan JN-32$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Xətai 4/55 məhəlləsində yerləşən qeyri-yaşayış binasının 23263 inventar nömrəli, 104013019-167-06301 reyestr nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kənd sakini Əhmədov Bahaddin İskəndər oğlunun adına verilmiş JN-699$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Məmmədsabir kənd sakini İsmayılov İsmayıl Yusif oğlunun adına olan JN-295 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mühasibat: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 290

Nömrəyə məsul: Bülbül Rövşənqızı, Türkanə Əsədova, Günay Hacıyeva
Dizayner: Həbibə Allahverdiyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.